XƏZƏR XƏBƏR

KHAZAR-REVIEW

ELMİ-KÜTLƏVİ, ƏDƏBİ-PUBLİSİSTİK TOPLU

№ 344 Oktvabr 2015



khazar-review.khazar.org

AYLIQ DƏRGİ

ISSN 2218 - 2772



38 MƏZUNLUQ MƏRASİMİ 39

İÇİNDƏKİLƏR

38 və 39-cu məzunluq mərasimi 4
Hamlet İsaxanlının Türkiyəyə işgüzar səfəri 8
İsaxan İsaxanlı 2015-ci il ədəbiyyat üzrə beynəlxalq Yesenin mükafatı laureatıdır 10
QS: Xəzər Universiteti Azərbaycanda birincidir. 12
Gürcüstanda məktəb məzunlarının görüşü 13
Universitet xəbərləri 16
Məşhur skripkaçının "Xəzər"də ustad dərsi 18
Gülnarə Rəfiq. "Rus Paqaninisi" Bakıda 19
Mədəniyyət 34
Tessa Berenson. Science Says Your Cell Phone Use Could be Hurting Your Relationship 40
Xəzər Universitetində yeni tədqiqat laboratoriyası fəaliyyətə başladı 42
Birinci kurs tələbələri ilə görüş 50
Nobel mükafatı laureatları - 2015 54
NDU xəbərləri 58
*Nizami Tağıso*y. Sergey Yeseninin "İran nəğmələri" ilə yeni görüş 61
"Bilik" yarışının qalibləri mükafatlandırıldı 70

1995-ci ilin yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
Camal Mustafayev
Əjdər Ağayev
Alla Axundova
Şahin Fazil
Kıyaz Aslan

İngilis dilində mətnlərin redaktoru:
Marta Lauri

Rəssam:
Mir Rafiq Əbdürəhimov

Kompüter tərtibatçısı:
Nigar Aydəmirova

Foto:
Multimedia Mərkəzi

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published since January 1998

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editors:
Alirza Balayev

Editorial member:
Jamal Mustafayev
Ajdar Aghayev
Alla Akhundova
Shahin Fazil
Kıyaz Aslan

Editor of English Texts:
Martha Lawry

Design by:
Mir Rafig Abdurahimov

Computer graphics:
Nigar Aydemirova

Photo:
Multimedia Centre







38 və 39-cu MƏZUNLUQ MƏRASİMİ

Oktyabrın 3-də Xəzər Universiteti "Dünya" məktəbinin iclas salonunda 38 və 39-cu məzunluq mərasimi keçirildi. Mərasimdə məzunlar və onların valideynləri, universitetin rəhbərliyi və professor-müəllim heyəti iştirak edirdilər.

Mərasim Azərbaycanın Dövlət Himninin ifası ilə başladı. Universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, universitetin rektoru, fəlsəfə doktoru Hassan Niknafs məzunları təbrik edərək, yeni həyat yollarında onlara uğurlar arzuladılar. Natiqlər universitetdə yaradılmış təhsil mühitindən, yalnız ixtisasına yiyələnmiş mütəxəssislər yox, eyni zamanda hərtərəfli inkişaf etmiş gənc nəsil yetişdirilməsindən, professor-müəllim heyətinin gərgin və səmərəli işindən, universitetin dünyanın aparıcı ali məktəbləri ilə hərtərəfli əlaqələrindən, maddi-texniki bazanın daim genişlənməkdə olmasından, həmçinin universitetin gələcəkdə həyata keçirəcəyi tədbirlərdən bəhs etdilər.

Nəzərə çatdırıldı ki, dünyada universitetlərin reytinqini müəyyənləşdirən beynəlxalq nüfuzlu təşkilat – QS World University Pankings-in 2015/2016-cı tədris ili üçün reytinq cədvəlində Xəzər Universiteti dünyanın ən yaxçı 700 universiteti arasında yer almışdır. Qeyd olundu ki, universitetdə yeni qurum – Məzunlarla iş şöbəsi yaradılmışdır və bundan məqsəd universiteti bitirənlərlə müntəzəm əlaqə saxlamaqdır.

Sonra məzunlara diplomlar təqdim olundu. Diplomları H. İsaxanlı, H. Niknafs, fakültə dekanları, departament müdirləri və müəllimlər təqdim etdilər. Xatirə şəkilləri çəkildi. Təhsil fakültəsinin məzunu Lamiyə Hacılı məzunlar adından çıxış edərək, universitet rəhbərliyinə və professor-müəllim heyətinə minnətdarlıq bildirdi və onların etimadını doğruldacaqlarını söylədi.

Mərasim universitetin Musiqi və incəsənət departamentinin hazırladığı konsert proqramı ilə müşayiət olundu.









CEREMONY FOR 38TH AND 39TH GRADUATIONS AT KHAZAR UNIVERSITY

On October 3, a ceremony for the 38th and 39th Khazar University graduations was held in the Dunya School auditorium. Graduates, parents, university administrators, faculty and staff participated in the event.

The ceremony began with the National Hymn of the Azerbaijan Republic. Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, and Dr. Hasan Niknafs, President of the University, congratulated the graduates and wished them success in their future lives. Speeches were made about the educational environment at the university which creates not only well-prepared specialists but also well-rounded young people; the hard-working faculty members; the many partnerships between the university and leading higher education institutions around the world; the constant improvement of facilities; and events that will be held in the university in the future.



It was noted that Khazar University was ranked within the top 700 universities in the world by the 2015/2016 QS World University Rankings. It was also mentioned that the university has created a new division for Alumni Relations whose objective is to maintain contact with alumni.

Then diplomas were presented to graduates by H.Isaxanli, H.Niknafs, deans of schools and department chairs. Group photos were taken. Lamiya Hajili, graduate of the School of Education, made a speech on behalf of the graduates to thank the university administration and faculty as well as to say that graduates would live up to the university's hopes.

The event was accompanied by a concert of the Department of Music and Fine Arts.







HAMLET İSAXANLININ TÜRKİYƏYƏ İŞGÜZAR SƏFƏRİ

ANTALYA BEYNƏLXALQ UNİVERSİTETİNDƏ

Oktyabrın 8-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Türkiyənin Antalya Beynəlxalq Universitetində oldu, universitetin rektoru professor Cihat Göktepe ilə görüşdü. Görüş zamanı iki universitet arasında işbirliyi, akademik əlaqələrin qurulması və inkişafı məsələləri müzakirə olundu.



ALANYA HEP UNİVERSİTETİNDƏ

Oktyabrın 9-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Türkiyənin Alanya HEP Universitetində oldu, universitetin rektoru professor Erol Sayın ilə görüşdü. Görüş zamanı universitetlər arasında əlaqələrin yaradılması və inkişafı məsələləri müzakirə olundu.

AKDENİZ UNİVERSİTETİNDƏ

Oktyabrın 9-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Türkiyənin Akdeniz Universitetində oldu, universitetin rektoru professor İsrafil Kurtcephe ilə görüşdü. Görüşdə iki universitet arasında akademik və digət əlaqələrin qurulması məsələləri müzakirə olundu.

AVRASİYA AKADEMİYASI TƏSİSÇİLƏRİNİN GÖRÜŞÜ



Oktyabrın 10-da Avrasiya Akademiyasının beş təsisçilərindən ikisi – professor Halil Inalcık və Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Ankarada görüşdülər. Avrasiya Akademiyasının inkişafı və qarşıda duran tədbirlər müzakirə olundu.





Правительство Рязанской области

Диплом

лауреата премии Рязанской области
имени С.А. Есенина в области литературы и искусства

в номинации
«Новые научные издания произведений С.А. Есенина на родном языке и в иноязычных переводах, отличающиеся высокой степенью текстологической подготовки и наиболее полным и содержательным историко-литературным и реальным комментарием» за книгу переводов «Сергей Есенин. Персидские мотивы»

награждается

Исаханлы Исахан Абдулла оглы

Губернатор Рязанской области О.И. Ковалев

Рязань, 2015 год

İSAXAN İSAXANLI
2015-Cİ İL ƏDƏBİYYAT ÜZRƏ BEYNƏLXALQ YESENİN MÜKAFATI LAUREATIDIR

Xəzər Universitetinin İdarəetmə və tələbə işləri üzrə prorektoru İsaxan İsaxanlı Rusiyanın Moskva və Ryazan şəhərlərində böyük rus şairi Serqey Yeseninin anadan olmasının 120 illiyi münasibətilə keçirilən tədbirlərdə iştirak etmişdir. Yubiley ərəfəsində İsaxan İsaxanlının Yesenin yaradıcılığı ilə bağlı apardığı araşdırmaları öz layiqli qiymətini almış, ona Rusiyada Serqey Yesenin adına təsis edilmiş 2 yüksək mükafat – **2015-ci il ədəbiyyat üzrə Beynəlxalq Yesenin mükafatı – «О Русь, взмахни крылами...» (Moskva, Rusiya Yazıçılar Birliyi) və 2015-ci il Ədəbiyyat və incəsənət sahəsində Yesenin mükafatı (Ryazan, Rusiya)** təqdim olunmuşdur.



Birinci mükafat oktyabrın 2-də Rusiya Yazıçılar Birliyində, ikinci mükafat isə oktyabrın 3-də Yeseninin doğma kəndi-Konstantinovo kəndində keçirilən Ümumrusiya Poeziya Bayramında, açıq havada 10 mindən çox adamın iştirak etdiyi təntənəli mərasimdə vilayətin qubernatoru tərəfindən təqdim edilmişdir.

Ümumilikdə 2015-ci ildə Yesenin mükafatına layiq görülən 24 laureatdan yalnız 2-si eyni vaxtda hər iki mükafata layiq görülmüşdür ki, onlardan biri İsaxan İsaxanlıdır. Əməkdaşımıza verilən bu yüksək mükafatlar haqqında Rusiyanın mərkəzi qəzetlərindən olan "Pravda" qəzetində, Rusiyanın bir sıra mərkəzi saytlarında, eləcə də Ryazan mətbuatında qəzetlərdə, saytlarda məlumatlar yayılmışdır.

İsaxan müəllimi təbrik edir, işlərində uğurlar arzulayırıq.



Международная литературная премия имени Сергея Есенина

«О Русь, взмахни крылами...»

О Русь, взмахни крылами.
Ввысь направь крен.
Стальным отливом
Встань над синью...

Диплом

В номинации
«Взыскующим взглядом»
2-е место
присуждается

Исахану Исаханлы
Баку, Азербайджан

Валерий Ганичев

Дмитрий Дарин

Москва, 2 октября 2015 года

XƏZƏR UNİVERSİTETİ AZƏRBAYCANDA BİRİNCİDİR

2015-ci il oktyabrın 21-də QS *(QS University Rankings)* təşkilatı 2015/16-cı tədris ili üçün İnkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya ölkələri universitetlərinin 2-ci illik reytinqini müəyyənləşdirmişdir.

Reytinq siyahısına Avropa və Mərkəzi Asiyadan olan 22 ölkədən – Azərbaycan, Albaniya, Belarus, Bosniya və Herseqovina, Bolqarıstan, Xorvatiya, Çexiya, Estoniya, Gürcüstan, Macarıstan, Qazaxıstan, Qırğızıstan, Latviya, Litva, Polşa, Rumıniya, Rusiya, Serbiya, Slovakiya, Sloveniya, Türkiyə və Ukraynanın ən yaxşı 150 ali təhsil müəssisəsinin adı daxil edilmişdir.

Azərbaycandan yalnız 4 ali məktəbin adı ən yaxşı 150 universitet sırasına daxil edilmişdir. Xəzər Universiteti Azərbaycandan ilk 70 ali təhsil ocağı arasına düşmüş tək universitetdir.

Xəzər Universiteti 50,5 xalla 67-ci sırada qərarlaşmışdır. Qafqaz Universiteti 44,6 xalla 78-ci, Bakı Dövlət Universiteti 44,1 xalla 83-cü və Azərbaycan Dillər Universiteti 101-110-cu yerlərdə yerləşdirilmişdir.

Regionda birinci yeri M.V.Lomonosov adına Moskva Dövlət Universiteti (Rusiya) tutmuşdur. Ümumiyyətlə, ən yaxşı 150 ali təhsil müəssisəsi sırasına Rusiyadan 48, Türkiyədən 16, Qazaxıstandan 14, Polşadan 12, Çex Respublikasından 10 və Ukraynadan 9 ali məktəb daxil edilmişdir.

Universitetlər doqquz əsas göstərici üzrə qiymətləndirilmişdir: akademik nüfuzu, işəgötürənlər arasında nüfuzu, müəllim/tələbə nisbəti, hər müəllimə düşən məqalə sayı, məqalələrə istinadlar, PhD müəllimləri, beynəlxalq müəllimləri, beynəlxalq tələbələri və veb resursları.

Əlavə məlumat üçün bu linkə müraciət etmək olar: *http://www.topuniversities.com/university-rankings/eeca-rankings/2015#sorting=rank+region=+country=80+faculty=+stars=false+search.*

KHAZAR UNIVERSITY IS THE BEST IN AZERBAIJAN

On October 21, the 2nd annual QS University Rankings: Emerging Europe & Central Asia 2015/16 was released.

This ranking involves the top 150 higher education institutions in the EECA region, from 22 different countries: Azerbaijan, Albania, Belarus, Bosnia and Herzegovina, Bulgaria, Croatia, Czech Republic, Estonia, Georgia, Hungary, Kazakhstan, Kyrgyz Republic, Latvia, Lithuania, Poland, Romania, Russia, Serbia, Slovakia, Slovenia, Turkey, and Ukraine.

Only 4 Azerbaijani universities were included in the top 150 ranking. **Khazar University** is in the top 70 universities of the region.

It took 67th place with 50.5 points, **Qafqaz University** is at 78th place with 44.6 points, **Baku State University** took 83th place with 44.1 points and **Azerbaijan University of Languages** was placed in the 101-110 tier.

The first place in the region is held by Moscow State University. Overall, Russian universities continue to dominate, accounting for 48 of the top 150. Turkey has 16 higher education institutions, Kazakhstan 14, Poland 12, the Czech Republic 10 and Ukraine 9.

Universities are evaluated on nine key performance indicators: academic reputation, employer reputation, faculty/student ratio, staff with a PhD, papers per faculty member, citations per paper, international faculty members, international students, and web impact.

For more information, see this link:*http://www.topuniversities.com/university-rankings/eeca-rankings/2015#sorting=rank+region=+country=80+faculty=+stars=false+search*





Hamlet İsaxanlı
dərs əlaçıları arasında

GÜRCÜSTANDA MƏKTƏB MƏZUNLARININ GÖRÜŞÜ

İyunun 1-də Gürcüstan Respublikasının Qardabani rayonunun Kosali kəndində 1965-ci ildə Kosalı orta məktəbindən məzun olmuş şəxslərin bir-biri ilə və ictimaiyyətlə görüşü keçirildi. Məzunlar arasında həmin məktəbi qızıl medalla bitirmiş Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı da vardı. O, əsas məruzəçi kimi çıxış etdi.

Görüşdə H. İsaxanlıya onun məktəb arxivində qorunub saxlanmış inşa yazısı təqdim olunmuşdur.

(Yazı sonrakı səhifələrdə dərc olunur).

ქ. თბილისის სამგორის რ-ის
წერითი გამოცდებისათვის
5/VI 1961 წ.

Самгори раjону, Косалы орта мэктэбинин VII "а" синиф шакирди Гамлет Абдулла оглу Исаjевин бурахдыгы иншаны учун Азэрбаjчан дили вэ эдэби ираггэн тэкрири ишы.

М. Фузулинин „Мевэлэрин сэвбэти" эсэринин мэзмуну.

М. Фузули „Мевэлэрин сэвбэти" эсэрини ашагыдакы бир дил илэ ушаг эдэбиjjаты учун jазмышдыр. Бу эсэрин мэзмуну белэдир:

Кезэл бахар фэслэринин биринэ бир нэфэр адам истираhэт етмэк учун бага jола дүшүр. О, көрүр ки, бүтүн мевэлэр өзлэрини өjүр вэ мүбаhисэ едирлэр. Эввэлчэ алча өзүнү өjүр. О, сөзүнү гуртаран кими кавалы өзүнэ өjмэjэ, алчаны исэ пислэмэjэ башлаjыр:

„Сэнэдэ өзүн гамашыр дишлэр,
Хэлг тэ'бэjэ рүтубэт ишлэр."


Кимлэ бүтүнэ ачыглаjыр, өзүнү исэ тэ'рифлэjир:

„Сэрв агачы кими нэр будагсан,
Хублар чэкирлэр шитиражсан..."

Багда гарышыглыг jаjыг кэсир. Бүтүн мевэлэр мүбаhисэjэ girиширлэр. Алма, армуд, эрик, нарынч, үзүм вэ башгаларда өзлэрини өjүрлэр. Кэзмэjэ гоjмаjан адамын лап ачыгы тутур. О, динчэлмэк учун бостана кэлир вэ бурада бир мэнзэрэ көрүр ки, аз галыр дүjүшүб төрк едэ. Бурада да гарпыз, хиjар, кэрмэк, шамалы мүбаhисэjэ едирлэр. Лакин бурада багдакы кими өзбашыналыг jохдур. Гарпыз - вэзир, кэрмэк вэкил, хиjар - мүлазим, шамама исэ хадим вэзифэсиндэдир. Гарпыз - вэзир өзүнү өjэрэк дүjүр:

„Бизимлэ дэва мэнэм, мэн.
Jэни хэстэлэрэ шэфа мэнэм мэн."

Сонра кэрмэк, хиjар вэ шамама да өзлэрини өjүрлэр.



Бутун бу hадисəни көрэн вэ ешидэн говун-шах кирəлэшир вэ бостанчыја эмр едир ки, бутун мејвəлэрə үзэ вересин. Говунун ачыгэти белэ олур:

Деди ки: „Ачэм сизин пенаныз,
Бу бостан ичиндэ падишаныз..."
Беј илэ о дэм ајаға дурду,
Өз башынын кешиси илэ ајырды.

М. Фүзули бу эсэриндэ шүбhэсиз ки, мејвəлэри нəзэрдə тутмамышдыр. О, мејвəлэрин васитэси илэ ловға, бэшэријјэтэ бир хејри олмајан, өзүндэн башга hеч кэси сајмајан, азмыш феодалларын, варлыларын нəзэрдə тутмуш, онларын ичэ дүшүнү ачыб көстэрмишдир.

Фүзули, бостандакы мүбаhисəни иеч, сарај гулуғуларының мэнэб үзрүндэ кедэн үзкишмəсинэ бэнзэтмишдир.

Имла өнъви /

„5." (беш)

Им. Кəм. одуг: [illegible]

Фэн мүэллими: [illegible]

Ассистент: [illegible]

Qeyd (*redaksiyadan*): Müəllimlərin tutduğu bir imla səhvi səhv deyil.



BİNƏQƏDİ RAYONUNDA BEYNƏLXALQ MÜƏLLİMLƏR GÜNÜ QEYD EDİLDİ



Oktyabrın 5-də YAP Binəqədi təşkilatının inzibati binasında Binəqədi Rayon İcra Hakimiyyəti və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının Binəqədi Rayon Komitəsinin birgə təşkilatçılığı ilə Beynəlxalq Müəllim Günü münasibətilə tədbir keçirildi.

Tədbirdə rayon icra hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov, millət vəkili Aqil Abbas, Bakı şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Hüseyn Əsgərov, əməkdar müəllim, Respublika Təhsil Şurasının sədri professor Əjdər Ağayev, Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunun rektoru, Binəqədi rayon Ziyalılar Cəmiyyətinin sədri professor Asəf Zamanov, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi sədrinin müavini Mirzə Cəfərzadə, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Binəqədi rayon komitəsinin sədri Almaz Hacıyeva və rayon ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin nümayəndələri iştirak etdilər.

Tədbirdə ilk olaraq çıxış edən millət vəkili Aqil Abbas müəllimlik peşəsinin məsuliyyətli və şərəfli iş olduğunu qeyd edərək., müəllimin yüksək əqidəyə, mədəniyyətə və mənəviyyata malik olaraq daim düzgün vətəndaşlıq mövqeyi nümayiş etdirməli olduğunu bildirdi.







Bakı şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Hüseyn Əsgərov məhz müəllimlərin uşaq və gəncləri vətənə məhəbbət ruhunda tərbiyə etdiyini, onları vətənin müdafiəsinə hazırladığını vurğulayaraq, xalqın gələcəyinin müəllimlərin əsas silahı olan bilikdən asılı olduğunu qeyd etdi.

Əməkdar müəllim, Respublika Təhsil Şurasının sədri professor Əjdər Ağayev Binəqədi rayonunda təhsilin inkişafına diqqətlə yanaşıldığını qeyd edərək, əldə edilmiş nailiyyətlərin məhz rayon rəhbərliyinin məktəblərə göstərdiyi diqqət və qayğının nəticəsi olduğunu tədbir iştirakçılarının nəzərinə çatdırdı.

Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı adından müəllimləri təbrik edən Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov son illər bir sıra sahələrdə olduğu kimi, ölkədə təhsil sahəsində də yaddaqalan uğurlar əldə edildiyini bildirdi. Natiq bütün bu uğurların dəfələrlə çıxışlarında Azərbaycanda yeni gənc nəslin yetişdirilməsi və tərbiyə olunmasında təhsilin, məktəbin əhəmiyyətinin çox böyük olduğunu bildirən Prezident İlham Əliyevin təhsil sahəsində apardığı siyasətin məqsədyönlülüyünün bariz sübutu olduğunu vurğuladı.

Sonra Beynəlxalq Müəllim Günü münasibətilə təhsil sahəsində qazandığı uğurlara və rayonun ictimai həyatında fəal iştirakına görə bir qrup təhsil işçisi rayon icra hakimiyyəti başçısının fəxri fərmanı və hədiyyələri ilə təltif olundu.

Tədbirin bədii hissəsində Xəzər Universitetinin Kamera orkestri konsert proqramı ilə çıxış etdi.





MƏŞHUR SKRİPKAÇININ "XƏZƏR"DƏ USTAD DƏRSİ

"Üzeyir Hacıbəylinin 130 illiyinə həsr edilmiş VII beynəlxalq musiqi festivalı" çərçivəsində Bakıya gəlmiş məşhur rus skripkaçısı Oleq Poxanovski sentyabrın 22-də Xəzər Universitetində olaraq, universitetin Kamera orkestrinin ifaçılarına ustad dərsi keçmişdir. Universitetin Mərmər salonunda keçən tədbirdə tələbələr və professor - müəllim heyəti iştirak edirdi.

Mərasimi Xəzər Universietinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açaraq, qonağı iştirakçılara təqdim etdi. Oleq Poxanovskinin ustad dərslərindən əlavə, onun universitetin Kamera orlestri ilə birgə konserti də oldu.

Tədbirdə Azərbaycan Bəstəkarlar İttifaqının katibi, Üzeyir Haçıbəyli ev muzeyinin direktoru, əməkdar incəsənət xadimi, bəstəkar Sərdar Fərəcov iştirak edirdi.

Tədbir haqqında "Space", Lider TV kanallarında verilişlər verilmiş, "Bizim yol" qəzetində "«Rus Paqaninisi» Bakıda" adlı məqalə dərc olunmuşdur. Həmin məqaləni oxucularımıza təqdim edirik.

FAMOUS VIOLINIST GIVES MASTERCLASS AT KHAZAR

On September 22, Oleg Pokhanovski, a well-known Russian violinist who was visiting Baku for the VII International Music Festival Dedicated to Uzeyir Hajibeyli's 130th Birthday, visited Khazar University and held a masterclass for the violin section of the university's chamber orchestra. Students, faculty and staff also participated in the masterclass, which was held in the university's Marble Hall.

Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, opened the event by introducing the guest. Oleg Pokhanovski not only held a masterclass, but also played a concert program together with the chamber orchestra.

Composer Sardar Farajov, Secretary of the Azerbaijan Composers' Union, Director of the Uzeyir Hajibeyli House Museum and Honored Art Worker, also participated in the event.



«RUS PAQANİNİSİ» BAKIDA



Müasir zamanın tempi artdıqca mədəniyyətlər arası ünsiyyət insana böyük ümid payı verə bilir. Çünki "Görəsən oralarda necədi?", "Onlar filan məsələni nə cür həll edir?" kimi suallara qismən olsa da cavab tapırsan. Ən dəyərlisi, öz mədəniyyətini, intellektini fərqli meyarlarla bir daha araşdırıb vacib nəticələr çıxara bilirsən. Sentyabrın 18-dən, yəni Üzeyir bəyin doğum günü və Musiqi günündən start almış "Üzeyir Hacıbəylinin 130 illiyinə həsr edilmiş 7-ci beynəlxalq musiqi festivalı" paytaxt sakinlərinə dünya musiqisinə daha bir addım yaxın olmağa imkan verdi. Musiqisevərlər bir konsert salonundan çıxıb tez-tələsik o birisinə yollanır ki, heç nəyi qaçırmasın. Heydər Əliyev Fondu və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin birgə təşkilatçılıq etdiyi bu möhtəşəm tədbirlər silsiləsi sentyabrın 28-nə qədər davam edəcək.





"Fenomenal, parlaq, əsrarəngiz, fövqəladə, müstəsna" və "dəqiq, ciddi, səmimi".

Festival çərçivəsindən olan daha bir tədbir, dünya şöhrətli skripkaçı Oleq Poxanovskinin ustad dərsləri sentyabrın 22-də Xəzər Universitetində keçirildi. Oleq Poxanovski karyerasını 6 yaşından Rusiyada Kuybışev simfonik orkestrinin müşayiəti ilə başlayıb. Onun ilk müəllimi və ömrünün sonunacan ən vacib ustadı dayısı Lev Zaides olub. Özü də dahi skripkaçı olan Lev Zaides 39 yaşında Rusiyada vəfat edib. Bununla belə əla skripkaçı kimi bünövrəsini qoyduğu bacısı oğlu artıq 10 yaşında Moskvanın istedadlı musiqiçilər üçün xüsusi məktəbinə daxil olmağa layiq bilindi. Oleq Poxanovskinin yaradıcılıq yolu sonra Moskva Dövlət Konservatoriyasından, Valeri Klimov, David Oystrax və Yuri Yankeliviçin sinfindən, daha sonra Amerikanın nüfuzlu tədris ocaqlarından, "Julliard School with Dorothy DeLay" məktəbi, Pinxas Zukermanın Manhetten məktəbindən, Kanada skripkaçısı Taras Qaborun "Solisti dal Mondo" proqramından və Monreal Universitetində Vladimir Landesmanın sinfindən keçib.

Gənc skripkaçı çoxsaylı beynəlxalq müsabiqələrin (Polşada "Wieniawski", İtaliyada "Paganini", İspaniyada "Sarasate" adına , Jenevada "CIEM") qalibi və Kanada Professional Sənətkarların Milli Mükafatının layiqli sahiblərindəndir.





Oleq Poxanovski ABŞ, Kanada, Avropa, Rusiyada, İsraildə ümumilikdə 1000-dən artıq konsert səfərlərində olmuş, eləcə də Toronto, Monreal, Qaaqa, Moskva simfonik orkestrləri ilə solo konsertlər vermişdir. Miçeqan ştatında "Lake Superior State University"də professor kimi 1997-2001-ci illərdə dərs deyib. Hazırda Minitoba Universitetinin skripka və kamera musiqisi sinfinin professoru kimi çalışır. Poxanovski "Oleq və onun dostları" adlı beynəlxalq musiqi silsiləsinin yaradıcısı kimi konsertlər verməklə musiqi mədəni həyatını canlandırmağa çalışır. Onun çalğısı "fenomenal", "parlaq", "əsrarəngiz", "fövqəladə, müstəsna" kimi rəylərə layiq görülür. Çalğısını "dəqiq, ciddi , səmimi" kimi xarakterizə edib özünü "rus paqaninisi" adlandırırlar.

Doktor Oleq Poxanovski Xəzər Universitetinin mərmər salonunda bir milyonluq səslənməsi olan skripkasını dilə gətirməyənədək çox sadə, təvazökar görünür və tamaşaçılardan demək olar ki, seçilmirdi.







Üzeyir bəy cəmiyyət və insan problemlərini araşdıran böyük sosioloqlardan olub

Professional musiqi məktəbimizin banisinin adını daşıyan beynəlxalq tədbirlərin bəlkə də ən qiymətli məqamı öncədən hamının Üzeyir bəyi anıb onun musiqi tarixində yerini və tarix qarşısında möhtəşəm yaradıcılıq yolunu vurğulamaqla onun şəxsiyyəti barədə informasiyanı dünyaya çatdırmaq cəhdləridir. Xəzər universitetinin təsisçisi Hamlet İsaxanlının çıxışından: "Azərbaycanda dahi sözünü lazım olduğundan artıq işlədirlər. Amma Üzeyir bəyin adı gələndə ölkədə siyasi baxışlarından, səviyyəsindən, yaşından, dünyagörüşündən asılı olmayaraq hər kəs bu insanın dahi olduğunu etiraf etməyə məcbur olur.





Üzeyir bəyin musiqi mədəniyyətimizdəki təşkilatçılıq rolunu vurğulamaqla mən deyə bilərəm ki, o, cəmiyyət və insan problemlərini araşdıran ilk azərbaycanlı sosioloqlardan biri olub. Üzeyir bəy "Leyli və Məcnun"u yazanda çox gənc idi. Eyni zamanda o, həmin illərdə ilk riyaziyyat dərsliyini də yazdı. O vaxt onun bu işini qiymətləndirmək üçün professional riyaziyyatçılar da yox idi. Ona görə jurnalist kimi tanınan bir gəncin yazdığı dərsliyə başqa bir gənc jurnalist, gələcəyin görkəmli siyasətçisi - Məmmədəmin Rəsulzadə rəy yazdı. Üzeyir bəy dahidir və dünya şöhrətlidir - bu sözü də biz çox işlədirik. Mən düşünürəm ki, Azərbaycanda dünya şöhrətli adam yoxdu. Belə şəxsi küçədə tanımalıdırlar.





Bizim dahi Üzeyir bəy də dünya şöhrətli deyil. Onu dünya şöhrətli etməkçün çalışmaq lazımdı. Onun tanınması üçün böyük proqramlar olmalıdır. Ruslar deyirdi ki, bizdə Tolstoy, Dostoyevski, hətta Çexov, Çaykovski dünya şöhrətlidir, amma Puşkin yox. Rus xalqı bu məsələ üzərində əsaslı şəkildə işlədi. Bunun sayəsində dünya Puşkini tanıdı. Mən düşünürəm ki, Üzeyir bəyin xatirəsinə keçirilən bu beynəlxalq festival da bu qəbildəndir. Dünyanın hər yerindən musiqiçilər, musiqi kollektivləri dəvət olunub. Onlar Azərbaycanla, Bakı ilə, Üzeyir bəylə və Azərbaycan musiqisi ilə tanış olurlar. Düşünürəm ki, belə mübadilədən sonra bu festivalın miqyası böyüyəcək və Üzeyir bəy dünya şöhrətli ola biləcək".



Üzeyir Hacıbəyli bizim fəxarət yerimizdi

Bəstəkar Sərdar Fərəcov: "Üzeyir bəyin nə qədər hərtərəfli şəxsiyyət olması barədə düşünəndə hər dəfə heyrətlənirsən. Üzeyir bəy Qori seminariyasında oxuyurdu, əslində müəllim olmalı idi. Amma o, skripkada çalmağa başlayır, şeirlər yazır, xalq nağıllarını tərcümə edir, hadisələrə biganə qalmayıb məqalələr yazır. Onun yazılarından məlumdur ki, insanların güzəranını necə həssas hiss edir, onun vətəndaş mövqeyi vardı. Bu gün "Arşın mal alan" Avropadan tutmuş Çinə qədər yüzlərlə ölkədə tamaşaya qoyulub. Mən son bir neçə ildə Üzeyir bəyin ev muzeyinin direktoru kimi dəfələrlə bu əsərin müxtəlif ölkələrdə premyerasında iştirak etmişəm. Bu əsərin tamaşaya qoyulduğu teatrların bu boyda siyahısı dünyada barmaqla sayıla biləcək qədər bəstəkara nəsib olub. Bu, bizim fəxarət yerimizdi".

"Özün bəstələyirmiş kimi çalmalısan"

Hacıbəyov festivalı çərçivəsində keçən skripkaçı Oleq Poxonovskinin ustad dərslərinin birinci yarısı Xəzər Universitetinin Zülfiyyə Sadıqovanın rəhbərliyi altında çalışan kiçik tərkibli orkestrinin konsert təqdimatına ayrılmışdı. Proqramda Ü.Hacıbəyovun "Arazbarı", Qarayevin "Xəzər neftçiləri" süitasından vals, "İldırımlı yollarla" baletindən "Qızların rəqsi", Sviridovun "Vals"ı, Sərdar Fərəcovun "Zəriflik" valsı vardı. Baxın ikili konsertində Oleq Poxanovski də orkestrə qoşulub skripkasını dilə gətirdi. Amma əsas məqsəd məşhur skripkaçının ustad məsləhətlərini eşitmək idi. İfaçılar Nəzrin Rzayeva (Şedrin - Albenisə bənzətmə), Əli İvanov (Mosart - 5 saylı konsert), Aleksandra Məmmədzadə (Vinyavski - Sketrtso-tarantella) əsərlərini çalıb Oleq Poxanovskinin qiymətli məsləhətlərini aldılar. Əlbəttə ki, ustad dərslərdə deyilənləri yazıb oxucunu səbrdən çıxarmaq olmaz. Çünki musiqidən danışmazlar, onu dinləyərlər. Oleq Poxanovskinin əsl simasını görmək istəyənlər 23-də Kirxanın kiçik salonuna yığışdı. Konsertmeyster Zülfiyyə Sadıqovadır.

"Əgər Bakıda yaşasaydım, yəqin ki, bu yaşacan tək qalmazdım"

Ustad dərsində məşhur skripkaçının dediyi bir ifadə lap yaddaqalan oldu: "İfa edərkən beyin həmişə ifaçılıqdan bir addım irəlidə olmalıdır. Özün bəstələyirmiş kimi çalmalısan". O, bəstəkarlıqdan təsadüfən danışmadı. Oleq Poxanovskinin not işləmələri skripkaçılığı qədər məşhurdur. Danışmağa simic olsa da, bir-iki cümlə qoparmaq mümkün oldu: "Mən Rusiyadan çox gənc ikən çıxmışam. O vaxtlar ölkədən gedənlərin geriyə yolu olmurdu. Əlbəttə ki, peşman deyiləm. Dünya gördüm, ən yaxşı təhsil ocaqlarında oxudum, indi isə ən yaxşılardan sayılan Universitetdə dərs deyirəm. Təmin olunmuşam, ev-eşik, maşın, valideynlərimin tam təminatından arxayınlığım var. Yəni başqa ölkələrdə çətin başa gələn nemətlər mənə asan başa gəlib. Konsert praktikam da çox olur, bəziləri buna çox həsəd aparır. Çünki Kanada Universitetinin professoru olub arxayınlaşmaq da olardı. İnanmazsız, amma çox tənhayam. Artıq o yaşdayam ki, bəzi insani məsələlərin yaradıcılıqdan vacib olduğu barədə düşünməyə başlamışam. Ailə sahibi olmaq, uşaq böyütmək, iz qoymaq lazımdı. Deyim ki, burda salonlar Avropadakı kimi tamaşaçı ilə dolmur.

Kanada çox arxayın, amma soyuq ölkədi, hər mənada. Orda tənhalıq möhkəm hiss olunur. Bakıya gələn kimi temperamentdəki fərqləri həmən dəqiqə duyursan. Burda yolda durub düşünərkən sənə yaxınlaşıb kömək təklif edirlər. İnsanların üzünün ifadəsindən lap heyrətlənirəm. Bu qədər gözəl qız və qadınların bir şəhərə yığılmasını fantastika kimi qəbul edirəm. Qarşıma ya qəşəng, ya da çox gözəl qızlar çıxır. Yəqin onlar lap gənc yaşlarında ərə gedir, çünki belə qadınlardan vaz keçmək olmaz. Əgər burda yaşasaydım, yəqin ki, bu yaşacan tək qalmazdım. Konsertdə də zaldakı gözəl qadınların gözünün içində anlaşma axtaracam. Məncə onlar mənim skripka ilə deyəcəklərimin hamısını başa düşəcək..."

Gülnarə Rəfiq,
"Bizim yol"
23. 9. 2015



OLEQ POXANOVSKİNİN
ƏMƏKDAŞIMIZLA BİRGƏ KONSERTİ

Üzeyir Hacıbəylinin 130 illiyinə həsr edilmiş VII beynəlxalq musiqi festivalı çərçivəsində Bakıya gəlmiş məşhur rus skripkaçısı, beynəlxalq müsabiqələr laureatı Oleq Poxanovskinin sentyabrın 23-də Kamera və Orqan Musiqisi zalında Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri, pianoçu Zülfiyyə Sadıqova ilə birgə konserti olmuşdur.

Konsertdə dünya və Azərbaycan bəstəkarlarının əsərləri ifa edilmişdir. Sonda Oleq Poxanovski çıxış edərək, festivalın yüksək səviyyədə təşkilinə və tümumiyyətlə Bakıdakı qonaqpərvərliyə heyran qaldığını, Azərbaycan bəstəkarlarının əsərlərini öz repertuarına daxil edəcəyini bildirdi.

Tədbirdə Xəzər Universietinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı iştirak edirdi.








OLEG POKHANOVSKI'S CONCERT WITH KHAZAR DEPARTMENT OF MUSIC AND FINE ARTS CHAIR

On September 23, Oleg Pokhanovski, a well-known Russian violinist and winner of international competitions who was visiting Baku for the VII International Music Festival Dedicated to Uzeyir Hajibeyli's 130th Birthday, visited Khazar University and performed a concert in the university's Chamber and Organ Music Hall with pianist Associate Professor Zulfiyya Sadigova, Head of the Department of Music and Fine Arts.

The concert included the works of Azerbaijani and world composers. At the end of the event Oleg Pokhanovski made a speech stating his amazement at the organization of the festival and the hospitality he met in Baku. He also noted that he plans to include Azerbaijani works in his own repertoire.

Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, also participated in the event.





Xəzər Universitetinin əməkdaşı Tempus layihəsi çərçivəsində Latviyada olmuşdur

Sentyabrın 14-dən 17-dək Xəzər Universitetinin Neft mühəndisliyi departamentinin müdiri dosent Qəşəm Zeynalov "Enerji səmərəliliyi sahəsində tədrisin təkmilləşdirilməsi üçün təlim şəbəkəsinin inkişaf etdirilməsi" TEMPUS (Enerji) layihəsi çərçivəsində Latviyanın Riqa şəhərində səfərdə olmuşdur. Q. Zeynalov sentyabrın 15-də Riqa Texniki Universitetində TEMPUS (Enerji) layihəsi ilə əlaqədar "Enerji səmərəliliyi sahəsində tədrisin təkmilləşdirilməsi üçün təlim şəbəkəsinin inkişaf etdirilməsi" üzrə yekun konfransında "Azərbaycan universitetlərində enerji səmərəliliyi sahəsində yeni bilik və innovasiyaların əldə edilməsi" mövzusunda məruzə ilə çıxış edərək, qeyd edilən TEMPUS layihəsinin iştirakçıları olan Xəzər Universitetində, Azərbaycan Milli Aviasiya Akademiyasında və Qafqaz Universitetində enerji səmərəlliyi üzrə yeni kurikulumların, fənlərin yaradılması və ona uyğun olaraq yeni dərs vəsaitlərinin və laboratoriya işlərinin yazılması və təkmilləşdirilməsi, əldə edilmiş laboratoriya avadanlıqları əsasında uyğun laboratoriyaların yaradılması və həmçinin, gələcək planlar barəsində geniş məlumat vermişdir.

Sentyabrın16-da isə "Enerji səmərəliliyi sahəsində tədrisin təkmilləşdirilməsi üçün təlim şəbəkəsinin inkişaf etdirilməsi" üzrə seminarda TEMPUS (Enerji) layihəsinin yerinə yetirilməsi dövründə layihədə iştirak edən universitetlərin təqdim etdiyi müxtəlif hesabatların nəticələri və gələcək planlar barəsində müzakirələrdə iştirak etmişdir.

Khazar university Petroleum engineering Department chair in Latvia for Tempus (Energy) project

From September 14-17, 2015, Associate Professor Gasham Zeynalov, Chair of the Department of Petroleum Engineering, visited Riga, Lativa as part of the "Development of Training Network for Improving Education in Energy Saving (ENERGY)" TEMPUS project. On September 15th, he made a presentation on "Obtaining new knowledge and innovations in the field of energy saving in Azerbaijani universities" at the final conference for the "Development of Training Network for Improving Education in Energy Saving" project. In his presentation he also gave information about the development of new curricula, courses, textbooks and laboratory experiments in energy efficiency at Khazar University, Azerbaijan National Aviation University and Qafqaz University as well as the creation of a new laboratory with obtained equipment in this field. He also covered future plans.

On September 16th, he actively participated in a discussion about future plans and about the results of various partner universities' reports about their participation in the implementation of the "Development of Training Network for Improving Education in Energy Saving (ENERGY)" TEMPUS project.

KARYERA MƏRKƏZİNDƏ TƏLİM





Sentiyabrın 23-də Xəzər Universitetinin Karyera mərkəzi universitetin Mərkəz kampusunda tələbələr üçün "***Financial Aid Letter***-i necə yazmalı" mövzusunda təlim keçirdi. Təlimçi Karyera Mərkəzinin koordinatoru Ülviyyə Hüseynova idi. Təlimdə ***Financial Aid Letter***-in necə yazılması barəsində və mövzuya aid digər məqamlar haqqında ətraflı məlumatlar verildi.

Tələbələrin sualları cavablandırıldı.

İNTERNET ASILILIĞIMIZIN OLUB - OLMADIĞINI NECƏ ÖYRƏNƏ BİLƏRİK?

Son illərdə texnologiyanın inkişafı ilə əlaqədar yeniyetmə və gənclər arasında internetdən istifadə sürətli şəkildə artmağa başlamışdır. Artıq internetsiz, cib telefonu olmadan bir həyatı düşünmək belə insana ağlasığmaz gəlir. İnternet müxtəlif məqsədlərlə istifadə edilir; insanlar arasındakı ünsiyyət üçün bir mənbəyə çevrilməklə bərabər, anında xəbərləşmə, əyləncə, oyun, alış-veriş və s. kimi faydaları ilə diqqəti özünə çəkir, vaxtdan istifadə etməkdə işlərimizi asanlaşdırır. Təbii ki, faydaları ilə yanaşı internetin zərərləri də qaçılmazdır. Məqsədsiz, hərəkətsiz saatlarla internet qarşısında əyləşən və fərqində olmadan internetdən asılı hala düşən insanların sayı da gündən-günə artır.

İnternet asılılığı artıq dünyadakı mütəxəssislərin diqqətini cəlb edir. Belə ki, ilk dəfə Goldberg (1996) və sonra Young (2013) kimi mütəxəssislər "internet asılılığı" termini üzərində işləmiş və "patoloji internet istifadəsi" anlayışından istifadəni uyğun hesab etmişlər. Hansı terminologiyanın istifadə edilməsindən asılı olmayaraq, bu, yaxın gələcəkdə əsrin problemi olaraq qarşımıza çıxacaq. Bu mənada internet istifadəçiləri arasında internet asılılığı olan və olmayanların düzgün şəkildə müəyyən edilməsi böyük əhəmiyyət kəsb edir. Bu ehtiyacdan yola çıxaraq, Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin dekan müavini Mələk Kərimova türkiyəli mütəxəssis Selim Günüçlə birlikdə, S.Günüç və Murat Kayrinin (2010) hazırladığı internet asılılıq testi Azərbaycan mühitinə elmi şəkildə uyğunlaşdırılmışdır. Bu test 1146 "xəzərli" tələbə üzərində sınaqdan keçirilmiş və bu sahədə ilk empirik tədqiqat kimi *"Journal of Education və Training Studies"*də onlayn olaraq dərc edilmişdir. Tədqiqat nəticələrinə görə, tələbələrin 48,1% internet asılılığı olan, 51,9% internet asılılığı olmayan qrup kimi müəyyənləşdirilmişdir. Bu nəticə yaxın gələcəkdə uyğun profilaktik tədbirlərin keçirilməsi zərurətini ortaya qoyur. Əks halda, fiziki və ruhi problemlə üzləşən, internet asılılığı olan insanların sayının artması qaçılmazdır.

Bu tədqiqat Azərbaycan psixoloqlarının gələcəkdə görəcəyi tədbirlər və yeni elmi işlər üçün böyük əhəmiyyət kəsb edir. Başqa ölkələrdə istifadə edilən və sadəcə olaraq tərcümə edilərək istifadə edilən psixoloji testlər elmi olaraq doğru hesab edilmir. Bu mənada Azərbaycan cəmiyyətinə uyğunlaşdırılan və elmi olaraq yoxlanılan testlərin tətbiqi böyük əhəmiyyət kəsb edir. Bu test elmi təsdiqini tapmış klinik bir test olaraq psixoloqlar, psixiyatrlar tərəfindən istifadə edilə bilər.

Məqaləni bu linkdən oxumaq olar:
http://redfame.com/journal/index.php/jets/index

ASSISTANT DEAN'S ARTICLE PUBLISHED IN INTERNATIONAL JOURNAL



An article co-authored by Melek Karimova, Assitant Dean of the School of Humanities and Social Sciences at Khazar University, was published in Journal of Education and Training Studies (Redfame Publishing, USA). The article is entitled "Adaptation of Internet Addiction Scale in Azerbaijani Language: A Validity-reliability and Prevalence Study." It is co-authored by Selim Gunuc. Before writing the article, the authors carried out a large study including 1146 students from Khazar University to determine what percentage of students were addicted to the internet. They used an adaptation of adapt Gunuc and Kayri's (2010) Internet Addiction Scale into the Azerbaijani language. The study showed that 48.1% of students tested were addicted to the internet. For more detailed information, please see the original journal article (in English) on the journal website:

http://redfame.com/journal/index.php/jets/index

TƏLƏBƏ MƏCLİSİNİN YIĞINCAĞI

Sentyabrın 20-də Xəzər Universitetinin Tələbə Məclisi Parlamentinin növbəti (11-ci) yığıncağı keçirildi. Yığıncaqda Tələbə Məclisinin prezidenti Mirzəağa Səmədov və parlament nümayəndələri (26 üzv) iştirak edərək, Tələbə Məclisinin 2015-2016-cı təris ili üçün planları, yuxarı kurs tələbələrinin təcrübə keçməsinə departament və fakültələr tərəfindən köməklik göstərilməsi, yazıçı Qalib Xəlilin yaradıcılığı ilə tanışlıq görüşünün keçirilməsi, ATGTİ və digər QHT-lərlə birgə layihələrin həyata keçirilməsi və yarışların təşkili, şənlik və bayram elanlarının təşkilatçılar tərəfindən tələbələrə təklif olunması, Tələbə Məclisinə növbəti prezident seçkilərinin və 1-ci kurslarla görüşlərin keçirilməsi və "Xəzər"in emblemi əks oluna biləcək əşyaların tələbələr tərəfindən istifadə olunması barəsində müzakirələr aparıldı.

2015-2016-cı dərs ilinin qəbul olunmuş planına əsasən minifutbol yarışının oktyabrın sonundan mayın 9-na kimi davam etməsi, şahmat və bilik yarışlarının keçirilməsi, qızlardan ibarət voleybol və oğlanlardan ibarət basketbol yığmalarının formalaşması və universitetlərarası marafon və voleybol çempionatlarının keçirilməsi təklif olundu.

MAGİSTRANTLAR DİSSERTASİYA MÜDAFİƏ ETDİLƏR

Sentyabrın 21-də Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin magistrantları Ülkər Quliyeva "F.S.Fitzgeraldın "Möhtəşəm Getsbi" əsərində bədii ifadə vasitələri və onların Azərbaycan dilində izahı", Yeganə Ağayeva " Azərbaycan və İngilis dillərində Valentlik perspektivləri. Məchul növ və icbar növün əmələ gəlməsində iştirak edən strategiyalara müqayisəli yanaşma", Arzu Əzizova "Teodor Drayzerin "Amerika faciəsi" əsərində protoqonist obraz kimi Klayd Qriffin sosio-ədəbi təhlili", Rəcəb Rəcəbov "Teodor Drayzerin "Genni Herhart" əsərində frazeoloji birləşmələrin tərcüməsi", Günel Rüstəmova "Ernest Miller Heminqueyin yaradıcılığında müharibə və sülh problemi", Validə Kərimova "Siyasi diskursda metafora" mövzusunda elmi işlərini (elmi rəhbərlər: fəlsəfə doktoru Eldar Şahgəldiyev, Daniel Paul, fəlsəfə doktoru İradə Səmədova) müdafiə etdilər.


Müdafiə Şurasının üzvləri – fəlsəfə doktorları Eldar Şahgəldiyev, Dilbər Zeynalova, Reyhan Mədətova, İradə Səmədova magistr işləri barədə rəylərini söylədilər. Mövzular ətrafında müzakirə keçirildikdən sonra işlər müsbət qiymətləndirildi.

Sonda magistrantlar Müdafiə Şurasının üzvlərinə, elmi rəhbərlərinə, rəyçilərə onlara göstərdikləri qayğı və köməyə görə təşəkkürlərini bildirdilər.

"AZƏRBAYCAN ARXEOLOGİYASI" JURNALI REDAKSİYA HEYƏTİNİN İCLASI

Sentyabrın 29-da Tarix və arxeologiya departamentində "Azərbaycan arxeologiyası" jurnalı redaksiya heyətinin növbəti iclası keçirildi. İclasda jurnalın baş redaktoru, tarix elmləri doktoru, professor Qüdrət İsmayılzadə, redaktor müavinləri Roza Arazova və Tarix Dostiyev, departamentin müəllimi Orxan Zamanov və Elektron media mərkəzinin rəhbəri Alik Əlioğlu iştirak etdilər.

İclasda "Azərbaycan arxeologiyası" jurnalının rəsmi internet səhifəsi - ***archeology.khazar.org*** saytı ilə tanışlıq oldu. Sayt haqqında A. Əlioğlu ətraflı məlumat verdi. Sonra jurnalın yeni saylarında dərc olunacaq məqalələr nəzərdən keçirildi.



TƏLƏBƏ GƏNCLƏR TƏŞKİLATLARI SƏDRLƏRİNİN İCLASI









Sentyabrın 26-da Xəzər Universitetinin Mərkəz kampusunda ATGTİ ali təhsil müəssisələri TGT (Tələbə Gənclər Təşkilatı) sədrlərinin iclasını keçirdi. İclasda Bakı Dövlət Universiteti, Azərbaycan Universiteti, Azərbaycan Dillər Univeristeti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, Azərbaycan Kooperasiya Universiteti, Azərbaycan Milli Konservatoriyası, Azərbaycan Respublikası Prezident yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Texniki Universiteti, Bakı Avrasiya Universiteti, Bakı Biznes Universiteti, Bakı Slavyan Universiteti, Oldar Yurdu Universiteti, Milli Aviasiya Akademiyası, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı Ali Neft Məktəbi, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası, Sumqayıt Dövlət Universiteti, Bakı İdarəetmə və Texnologiya Kolleci, 2 nömrəli Bakı Baza Tibb Kolleci, Bakı Rabitə və Nəqliyyat Kolleci, Bakı Komputer Kolleci, Bakı Dövlət İqtisadiyyat və Humanitar Kolleci TGT-lərinin sədrləri iştirak etdilər.

İclasda ATGTİ-nin cari tədris ili üçün planları, layihələri və sədrlərin təklifləri, TGT İdarəetmə Şuraları ilə ATGTİ İcra Aparatının görüşlərinin keçirilməsi, tələbə və könüllülük kartlarının tələbələrə paylanması müzakirə olundu.

Tədbirin sonunda Xəzər Univeristeti Tələbə Məclisinin fəal üzvləri - Mirzəağa Səmədov (Tələbə Məclisinin prezidenti), Cəlalə Hüseynbəyli (Tələbə Məclisi prezidentinin müavini), Mehman Əsədli, Türkan Səmədova, Kənan Atayev (Tələbə Məclisinin Parlament üzvləri), Mühəndislik və tətbiqi elmlər fakültəsinin tələbəsi Nərmin İsayeva ATGTİ-nin və Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin sertifikatları ilə təltif olundular.



TARİXÇİ TƏLƏBƏLƏRLƏ GÖRÜŞ

Sentyabrın 29-da Xəzər Universitetinin Təhsil fakültəsinə tarix ixtisası üzrə qəbul olunmuş tələbələrlə Tarix və arxeologiya departamenti müəllimlərinin görüşü oldu. Görüşdə departamentin müdiri Roza Arazova və departamentin müəllimi Orxan Zamanov iştirak edirdilər. R. Arazova və O. Zamanov tələbələri yeni tədris ili münasibətilə təbrik etdilər və yeni başladıqları tələbə həyatında onlara uğurlar arzuladılar.

Sonra R. Arazova Xəzər Universitetinin tarixi haqqında məlumat verdi. Tələbələr üçün universitetin tarixi, fəaliyyəti, strukturu haqqında məlumatların əks olunduğu videoçarx nümayiş olundu. Tələbələr departamentin fəaliyyəti barədə də məlumatlandırıldılar.



XƏZƏR UNİVERSİTETİNİN MÜƏLLİMİ BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK ETMİŞDİR

Sentyabrın 29-dan oktyabrın 2-dək Bakıda keçirilən "Hissəciklər, sahələr, naqillər" adlı beynəlxalq seminarda Xəzər Universitetinin fizika müəllimi Nüsrətullah Cəfəri iştirak etmişdir.

Seminar fizika, xüsusilə hissəciklər və naqillər fizikasına həsr olunmuşdu. Nüsrətullah Cəfəri seminarda "MS (Maguejo-Smolin) çevirmələrinin təsiri altında xətlərin təsviri və İkiqat xüsusi nisbilik (*DSR– Doubly Special Relativity*) nəzəriyyələrində surət anlayışı" mövzusunda çıxış etmişdir.



"NİYYƏT MƏKTUBUNU NECƏ YAZMALI" MÖVZUSUNDA TƏLİM



Sentyabrın 30-da Xəzər Universitetinin Karyera Mərkəzi universitetin Mərkəz kampusunda tələbələr üçün *"Niyyət Məktubunu* necə yazmalı" mövzusunda təlim keçirdi. Təlimçi Karyera Mərkəzinin koordinatoru Ülviyyə Hüseynova idi. Təlimdə *Niyyət Məktubunun* necə yazılması barəsində və mövzuya aid digər məqamlar haqqında ətraflı məlumatlar verildi.

Sonra tələbələrin sualları cavablandırıldı.



"ELMİ TƏDQİQAT İŞLƏRİNDƏ ELEKTRON İNFORMASİYA MƏNBƏLƏRİNDƏN İSTİFADƏ" MÖVZUSUNDA SEMİNAR



Sentyabrın 23-də Xəzər Universitetində "Elmi tədqiqat işlərində elektron informasiya mənbələrindən istifadə" mövzusunda seminar keçirildi. Seminar Thomson Reuters təşkilatının nümayəndəsi Grigori Kalyagin tərəfindən aparıldı.


Seminarda Qlobal elmi istinad bazasını (Web of Science), h-indeksi, və elmi jurnalın impakt faktoru haqqında professor-müəllim heyətinə və PhD tələbələrə ətraflı məlumat verildi.

Tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı iştirak edirdi.

XALQ ARTİSTİNƏ HƏSR OLUNMUŞ KİTABDA ƏMƏKDAŞIMIZIN MƏQALƏSİ VERİLMİŞDİR

"Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzində "Əlibaba Abdullayev" adlı nəfis kitab çapdan çıxmışdır. Kitab məşhur rəqqas və rəqs quruluşçusu, mahnı və rəqs kollektivləri şəbəkəsinin yaradıcısı, Azərbaycan xoreoqrafiya sənətinin inkişafında böyük rolu olmuş Əlibaba Abdullayevin anadan olmasının 100 illik yubileyi münasibətilə nəşr olunmuşdur. Kitabın müəllifi sənətkarın qızı Elmira Abdullayevadır.

Kitabda Ə. Abdullayevin çoxşaxəli fəaliyyəti bütün dolğunluğu ilə əks etdirilmiş, Azərbaycanın görkəmli müsiqi xadimlərinin, həmçinin həmkarlarının onun haqqında xatirə və məqalələri verilmişdir. Xəzər Universiteti Musiqi və incəsənət departamentinin rəqs qrupu üzrə məsləhətçisi, əməkdar artist Xanlar Bəşirovun "Əlibaba müəllim yaradıcı rəqqas, milli sənətkar olub" adlı məqaləsi də yer almışdır. Məqaləni oxucularımıza təqdim edirik.



ƏLİBABA ABDULLAYEV YARADICI RƏQQAS, MİLLİ SƏNƏTKAR İDİ

Mən 1972-ci ildən rəqs sənətində, rəqs aləmində çalışıram. Bu illər ərzində Əlibaba Abdullayevin bir sıra rəqslərinin solo hissələrini ifa etmiş, Azərbaycan Dövlət Filarmoniyası mahnı və rəqs ansamblında, «Gənclik» rəqs ansamblında, özfəaliyyətdə onun rəqslərini bərpa etmiş və bu işdən zövq almışam. Əlibaba müəllimin sənətini, rəqslərini seyr etmiş, ondan və sənətindən mənəvi qida almışam. Onun ifa etdiyi rəqslərə nə qədər çox baxırsan, o qədər də onlar adama ruh verir, həvəs verir ki, bu sənəti sevəsən, təbliğ edib yaşadasan.

Əlibaba müəllim milli xalq xoreoqrafiya sənətinin yaradıcısıdır. O, adi rəqqas, xoreoqraf olmayıb; yaradıcı rəqqas və yaradıcı xoreoqraf olub. Üzeyir Hacıbəyli peşəkar musiqimizin yaradıcısı olduğu kimi, Ə. Abdullayev də peşəkar milli xoreoqrafiya sənətinin yaradıcısı olub. Onun yaradıcılığında o qədər məzmun, milli ruh, kök üstündə qurulmuş rəqsləri vardır ki, sözsüz bu rəqslərlə bütün dünyaya Azərbaycan xalqının mədəniyyətini, Azərbaycan xalqının milli dəyərlərini tanıtdırmaq mümkün olub. Ə. Abdullayevin araşdırılmağa layiq yaradıcılığı vardır.

Dünya ermənіləri bizim mədəniyyətimizi mənimsəyərək, dünyaya yaymaq istəyirlər. Biz isə çalışmalıyıq bu rəqsləri dünya səhnələrinə çıxardaq, yayaq ki, sənət ölməz və əbədi yaşasın. Əlibaba müəllimin sənəti professional səviyyədə, professional ansamblların proqramlarında daim qalmalı, ifa olunmalı, yaşamalıdır; nəçə ki o hələ sağlığında Azərbaycan Dövlət Filarmoniyasının mahnı və rəqs ansamblında işləyib, yaradıb, onları dünyaya çıxardıb, Azərbaycanı tanıtdırıb. Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Əlibaba müəllimin adına bir mərkəz yaradılsaydı, orada bütün rəqs sənətinin veteranları yığışıb, onun yadda qalan rəqslərini bərpa edərdilər.

Əlibaba müəllimin Novruz bayramı ilə əlaqədar rəqsləri, Qaval ilə rəqsləri, «Ovcular», «Bahar» «Çobanlar», «Gənclik», «Bulaq başında», «Məhsul» kimi süita və rəqsləri çox gözəl və təravətlidir. İdman mövzusunda yaratdığı bir neçə rəqsi maraqlıdır. Mənim arzum budur ki, Ə.Abdullayevin sənətini qoruyaq, təbliğ edək. Onun 200-dən artıq rəqsi vardır. Bu gün yaşlı nəsil bizə bu işdə kömək edə bilər ki, Əlibaba müəllimin yadda qalan rəqsləri bərpa edilib təbliğ olunsun, yaşasın.

Sənətdə işlədiyim dövr ərzində düşünürdüm ki, Əlibaba müəllimin qurduğu rəqslərdən, onun qoyduğu irsdən bəhrələnərək, onun işini davam etdirim. Bu məqsədlə 2007-ci ildə **«Azərbaycan qartalları»** adlı uşaq kollektivini yaratdım və 40 ildə topladığımız yaradıcılıq bazamızdan istifadə edərək, yavaş-yavaş niyyətimizə çatırıq. Bu illər ərzində repertuarımızda olan səkkiz rəqsi («Çobanlar», «Azərbaycan» süitası, «Yallı-zorxana» və s.) Belçikada, Brüsseldə, Türkiyədə, Dağıstanda böyük müvəffəqiyyətlə nümayiş etdirmişik. Yaxın gələcəkdə Şotlandiyada, İsveçrədə, Fransada, Rumıniyada və Efiopiyada çıxışlarımız planlaşdırılıb.

Milli xoreoqrafiya sənətinin banisi Ə. Abdullayevin məktəbini yaşatmaq hamımızın borcudur.

Xanlar Bəşirov,
Azərbaycanın əməkdar artisti



"AZƏRBAYCAN ARXEOLOGİYASI" JURNALI REDAKSİYA HEYƏTİNİN GENİŞ İCLASI

Oktyabrın 2-də "Azərbaycan arxeologiyası" jurnalının redaksiya heyətinin növbəti iclası oldu. İclasda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, "Azərbaycan arxeologiyası" jurnalının baş redaktoru, tarix elmləri doktoru, professor Qüdrət İsmayılzadə, redaktor müavinləri Roza Arazova, Tarix Dostiyev, Bəhlul İbrahimli, Tarix və arxeologiya departamentinin müəllimi Orxan Zamanov, departamentin laborantı Ləman Babaşlı, "Khazar Journal of Humanities and Social Sciences" ("Xəzər Humanitar və Sosial elmlər jurnalı") jurnalının redaktor müavini Xəyalə Məmmədova və jurnalın ingilis dili üzrə redaktoru Marta Lauri, Elektron Media Mərkəzinin rəhbəri Alik Əlioğlu iştirak etdilər.

İclası H. İsaxanlı açdı. Əvvəlcə, Xəzər Universitetində dərc olunan digər jurnallarla yanaşı, "Azərbaycan arxeologiyası" jurnalının yaranma tarixi və fəaliyyəti haqqında məlumat verdi. Gündəlikdə duran iki əsas məsələ – "Azərbaycan arxeologiyası" jurnalına beynəlxalq indeksin alınması və ***archeology.khazar.org*** saytının təkmilləşdirilməsi ilə bağlı qeydlərini iclas üzvləri ilə bölüşdü. Qeyd etdi ki, jurnalın beynəlxalq arenaya çıxarılması üçün keyfiyyət parametrlərinin gücləndirilməsi vacibdir. Sonra Qüdrət İsmayılzadə çıxış etdi. Jurnalda mədəni irsimizin təbliği məqsədilə memarlıq abidələrimiz və tarixi məkanlar barədə məlumat verilməsini təklif etdi. Tarix Dostiyev və Bəhlul İbrahimli məqalələrin seçilməsi və redaktə olunması barədə məlumat verdilər.

Roza Arazova çıxışında həm jurnalda, həm də saytda yeniliklərin tətbiq edilməsinin zərurətini qeyd etdi və bu barədə təkliflərini bildirmək üçün Orxan Zamanova söz verdi. Orxan Zamanov ***archeology.khazar.org*** saytının strukturunun yenilənməsi və işçi heyətinin cəlb olunması, jurnalda və saytda maraqlı rubrikaların yaradılması barədə ideyalarını bölüşdü. Alik Əlioğlu ***archeology.khazar.org*** saytını iclas iştirakçılarına təqdim etdi. Bölmələr barədə məlumat verdi.

Daha sonra digər cari məsələlərin müzakirəsi ilə iclas başa çatdı.







UKRAYNA BÖHRANI VƏ CƏNUBİ QAFQAZDA TƏHLÜKƏSİZLİK MÖVZUSUNDA MÜHAZİRƏ

Oktyabrın 5-də Xəzər Universitetinin Siyasi elm və beynəlxalq münasibətlər departamentinin təşkilatçılığı ilə Oslo Sülh Araşdırmaları İnstitutunun (PRIO) tədqiqatçı professoru Dr. Pavel Baev Ukrayna böhranının Cənubi Qafqazda təhlükəsizlik vəziyyətinə təsiri haqqında mühazirə oxudu. Mühazirə zamanı Pavel Baev Rusiyanın Ukrayna və Suriyada hərbi iştirakına dair öz fikirlərini bildirdi və bunun regiona göstərə biləcək təsirlərini sadaladı. O, həmçinin mürəkkəbliyi ilə fərqlənən mövcud vəziyyətin təhlili üçün müntəzəm yanaşmaların uyğunsuzluğunu vurğuladı.

Mühazirə zamanı Rusiyanın xarici siyasətində əsas istiqamətlər, Rusiyanın Ukraynada hərbi iştirakına haqq qazandırmaq məqsədilə əhaliyə təqdim olunan təsvirlər, pisləşən iqtisadi vəziyyətin Rusiyada qərarların qəbul edilmə siyasətinə təsiri və dövlətin Şimali Qafqaza diqqətsizliyi nəticəsində regionun sabitliyinə yaranan təhdidlər əhatə olunan mövzular arasında idi.Mühazirədən sonra departamentin müdiri Dr. Muxtar Hacızadənin moderatorluğu ilə keçirilən sual-cavab sessiyası zamanı Dr. Baev Ukraynada sülhün bərqərar olmasının perspektivləri, Suriyaya hərbi hücumdan Rusiyanın məqsədləri, Qafqazdakı münaqişələrdə Rusiyanın iştirakının təsirləri, İŞİD-in əhatəsinin genişlənməsi və Avropa Birliyi tərəfindən alternativ enerji resurslarının inkişafına göstərilən dəstəyə dair sualları cavablandırdı.

Tədbirdən sonra cənab Pavel Baev Xəzər Universitetinin Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə görüşdü. Görüş zamanı tərəflər Xəzər Universiteti və PRIO arasında gələcək akademik əməkdaşlıq imkanlarını müzakirə etdilər.





SEMINAR ON THE UKRAINE CRISIS AND THE SECURITY SITUATION IN THE SOUTH CAUCASUS

On October 5, the Department of Political Science and International Relations hosted Dr. Pavel Baev, a research professor at the Peace Research Institute Oslo (PRIO), who delivered a lecture on the impact of the Ukraine crisis on the security situation in the South Caucasus. His main focus was on Russia's military involvement in Ukraine and Syria as well as its implications for the wider area. He emphasized the complexity of the present situation which is defined by a high level of uncertainty, where the usual frames of analysis and rationalization become problematic. He also touched upon the dominant trends in Russia's foreign policy, representations given to the public with the aim of justifying Russian military involvement in Ukraine, implications of the worsening economic situation on Russia's decision-making policies as well as threats of destabilization in the Northern Caucasus engendered by authorities' neglect to the region. During the Q&A session, which was moderated by Department Chair Dr. Mukhtar Hajizada, Dr. Baev answered questions about the prospects for establishment of peace in Ukraine, Russia's motivations for the recent deployment of air strikes in Syria, possible impact of Russia's involvement in the conflicts in the Caucasus region, the expansion of ISIS as well as the prospects for EU's continued support for the development of alternative energy resources.

Following the seminar, Dr. Baev met with Prof. Hamlet Isakhanli, the Chairman of the Board of Directors and Trustees of Khazar University. They discussed the possibilities of academic collaboration between Khazar University and PRIO in the future.







"KONFUTSİ İNSTİTUTLARI GÜNÜ" QEYD OLUNDU

Bakı Dövlət Universiteti (BDU) nəzdində Konfutsi İnstitutu Xəzər Universiteti "Dünya" məktəbinin şagird və müəllim heyəti ilə birlikdə "Konfutsi institutları günü" adlı tədbir təşkil edib.

Tədbirdə Çin mədəniyyəti - kalliqrafiya, kağızkəsmə, çay incəsənəti, milli musiqi və Çin dili tədris materialları sərgisi təqdim olunub.

"Dünya" məktəbinin direktoru Mərufə Mədətli tədbirdə iştirak edən çinli müəllimləri əlamətdar gün münasibətilə təbrik edib, tələbələrin Çin dilini və mədəniyyətini dərindən öyrənəcəklərinə əminliyini vurğulayıb.

BDU-nun nəzdində Konfutsi İnstitutunun Çin tərəfdən direktoru, dosent Hu Feng Hua Çin mədəniyyəti barədə məlumat verib.

Tədbirdə Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurası sədrinin müşaviri Nailəxanım İsayeva iştirak edirdi.



CONFUCIUS INSTITUTES DAY OBSERVED

The Confucius Institute operating in affiliation with Baku State University organized a Confucius Institutes Day event together with teachers and students of Khazar University's affiliate Dunya School.

At the event, demonstrations of Chinese culture were made including calligraphy, paper cutting, the art of tea, and national music. There was also a display of Chinese language education materials.

Marufa Madatli, Director of Dunya School, congratulated the Chinese teachers participating in the event on their special day. She emphasized her confidence that students would learn Chinese language and culture well.

Associate Professor Hu Feng Hua, Chinese Director of the Confucius Institute operating in affiliation with Baku State University, spoke about the culture.

This year is the 10th time that the Confucius Institute has observed Confucius Institute Day, which is organized by nearly 1500 Confucius Institutes and Confucius centers in 126 countries around the world and in the region..





Oct. 1, 2015

Tessa Berenson



SCIENCE SAYS YOUR CELL PHONE USE COULD BE HURTING YOUR RELATIONSHIP

TIME

"Something as common as cellphone use can undermine the bedrock of our happiness"

You probably Pphubb all the time, even if you don't know what that means. And a new study says it could be damaging your relationship.

Pphubbing refers to "partner phone snubbing," or when you get distracted by your cell phone when you're with your significant other. A new study from Baylor University found that Pphubbing hurts relationship satisfaction, thus also negatively impacting overall happiness.

"What we discovered was that when someone perceived that their partner phubbed them, this created conflict and led to lower levels of reported relationship satisfaction," James Roberts, a professor of marketing and co-author of the paper, said in a statement. "These lower levels of relationship satisfaction, in turn, led to lower levels of life satisfaction and, ultimately, higher levels of depression."

To find results, the researchers developed a Pphubbing scale, that included statements such as "my partner places his or her cellphone where they can see it when we are together" and "my partner glances at his/her cellphone when talking to me." Overall, 46.3 percent of the respondents reported being Pphubbed by their partner.

"When you think about the results, they are astounding," Roberts said. "Something as common as cellphone use can undermine the bedrock of our happiness – our relationships with our romantic partners."

The study was based on two separate surveys, which in total represented 453 adults in the U.S.

http://time.com/4057948/cell-phone-hurting-relationship/





TƏLƏBƏ MƏCLİSİ PARLAMENTİNİN İCLASI

Oktyabrın 4-də Xəzər Universitetinin Tələbə Məclisi parlamentinin növbəti (12-ci) iclası keçirildi. Tələbə Məclisinin prezidenti Mirzəağa Səmədov və parlament nümayəndələrinin (31 üzv) iştirak etdiyi iclasda Tələbə Məclisinin təşkil edəcəyi bilik və idman (voleybol, futbol və basketbol – oğlanlar, voleybol – qızlar) yarışlarının qayda və tarixləri, məclisin daxili komitələrinin tərkibi və iş planları, univeristetdaxili infrastrukturda təmir olunmalı avadanlıqlarla (kamera və proyektorlar), yeməkxana ilə bağlı narazılıqlar, QHT-lər ilə yeni birgə layihələri ("İrəli", "Level Up" Mərkəzi) və midterm imtahanı ərəfəsində universitetin psixoloq müəllimlərinin tələbələrlə təlim xarakterli görüşlərinin keçirilməsi müzakirə olundu.

Eyni zamanda, tələbələrin yeni tədris ilində qarşılaşdığı problemlərə toxunuldu. Axşam (saar 18^{30}-dan sonra) dərsləri olan tələbələrin kitabxana və yeməkxanadan istifadə edə bilməməsinin, kitabxanada olan kompüterlərin işləməməsinin tələbələrin narazılığına səbəb olduğu bildirildi. Yeməkxanada havalandırma sisteminin zəif olması, stipendiya zamanı elanların olmaması, bəzi otaqların tam yararlı olmadan və ya təmiri tam bitmədiyi halda istifadəyə verilməsi qeyd olundu. Tələbələrin ən böyük narazılığının isə dərs zamanı təmir işlərinin aparılması olduğu bildirildi.

Məsələlərin əksəriyyəti Tələbə Məclisinin parlamenti tərəfindən dəstəklənərək, prezident tərəfindən ərizələrin yazılması və tələbələrə yardım göstərilməsi haqqında qərar qəbul olundu.



ŞƏXSİ FONDDAN KİM-Ə HƏDİYYƏ OLUNDU

Xəzər Universiteti Dillər və mədəniyyətlər kafedrasının fars dili müəllimi, fəlsəfə doktoru Zivər Hüseynli öz şəxsi kitabxanasından Xəzər Universitetinin Kitabxana İnformasiya Mərkəzinə (KİM) 50 müxtəlif kitab hədiyyə etmişdir. Bu kitablardan 2 ədədi fars dilində roman, qalan 48 ədədi isə türk dilində tarix, mədəniyyət və ədəbiyyata aid əsərlərdir və bəzi kitabların 2 nüsxəsi vardır. Türk dilində olan kitablar əsasən Zivər Hüseynlinin müxtəlif vaxtlarda Türkiyənin Kahramanmaraş şəhərində üç dəfə Beynəlxalq simpoziumda iştirak etdiyi vaxt həmin şəhər haqqında əldə etdiyi kitablardan ibarətdir.

Kahramanmaraş və ətrafında qurulmuş Zülqədəroğulları bəyliyi, Osmanlı dövlətinin tarixi, bölgənin ictimai və ədəbi mühiti haqqında qələmə alınmış bu kitablar həmin bölgə haqqında araşdırma aparmaq istəyən tədqiqatçı və tələbələrin ixtiyarına veriləcək.



XƏZƏR UNİVERSİTETİNDƏ YENİ TƏDQİQAT LABORATORİYASI FƏALİYYƏTƏ BAŞLADI

2015-2016-cı tədris ilindən Xəzər Universitetinin "Neftçilər"kampusunda Hüceyrə Patologiyası Tədqiqat Mərkəzinin laboratoriyası fəaliyyətə başlamışdır.

Burada universitetin doktorantları elmi işlərinin tədqiqatına, bütün fakültələr üzrə tələbələr isə bioloji elmlərə aid fənlərin təcrübə məşğələlərini keçməyə başlamışlar.







Oktyabrın 7-də Mühəndislik fakültəsinin biotibbi mühəndislik ixtisası üzrə təhsil alan tələbələri Biologiya elmləri departamentinin müəllimi fəlsəfə doktoru Muşfiq Orucov ilə laboratoriyada "Biotibbi mühəndisliyə giriş", oktyabrın 8-də Təhsil fakültəsinin biologiya müəllimliyi və kimya və biologiya müəllimliyi ixtisasları üzrə təhsil alan tələbələri Biologiya elmləri departamenyinin müdiri, fəlsəfə doktoru İradə Xəlilova ilə "Ümumi biologiya", oktyabrın 9-da Humanitar və sosial elmlər fakültəsinin psixologiya, politologiya və regionşünaslıq ixtisasları üzrə təhsil alan tələbələri İ. Xəlilova ilə Tibbi biologiya", oktyabrın 10-da Təhsil fakültəsinin biologiya müəllimliyi və kimya və biologiya müəllimliyi ixtisasları üzrə təhsil alan tələbələri Biologiya elmləri departamenyinin müəllimi, fəlsəfə doktoru Aytəkin Həsənova ilə "İnsan və heyvan fiziologiyası" fənlərinin təcrübə məşğələləri keçirilmişdir.



NEW RESEARCH LABORATORY OPENS AT KHAZAR UNIVERSITY

During the 2015-2016 academic year, a new Cell Pathology Research Center Laboratory opened at Khazar University's Neftchilar campus. University researchers, PhD students, and students from all Schools taking biology classes with a laboratory component have begun to use the laboratory.





On October 7th, Dr. Mushfig Orujov, instructor for **the Department of Biological Sciences, began to teach his Introduction to Biomedical Engineering course in the laboratory for students majoring in Biomedical Engineering of the School of Engineering and Applied Sciences. On October 8th, a General Biology course taught by Dr. Irada Khalilova, Chair of the Department of Biological Sciences, began in the laboratory for biology education and chemistry/biology education** majors of the School of Education. On October 9th, a Medical Biology course taught by Dr. Khalilova for **psychology, political sciences and regional studies majors of the School of Humanities and Social Sciences began. On October 10th, a Human and Animal Physiology course taught by Dr. Aytakin Hasanova, instructor of the Department of Biological Sciences, for biology education and chemistry/biology education majors of the School of Education, began in the new laboratory.**





ELEKTRONİKA, TELEKOMMUNİKASİYA VƏ RADİOMÜHƏNDİSLİK DEPARTAMENTİNDƏ

Oktyabrın 9-da Xəzər Universitetinin Elektronika, telekommunikasiya və radiomühəndislik departamentinin təşkilatçılığı ilə "Sıgma Technıcal Servıces" şirkətinin direktoru Dr. Hassan Aouil ilə görüş keçirildi. Görüşdə Dr. Hassan Aouil təhsil ilə sənaye sektoru arasında əlaqələr haqqında məruzə ilə çıxış etdi. Seminarda elektronika və kompüter ixtisası üzrə təhsil alan tələbələr iştirak edirdilər.

MEETING IN DEPARTMENT OF ELECTRONICS, TELECOMMUNICATIONS AND RADIO ENGINEERING

On October 9, 2015, the Department of Electronics, Telecommunications and Radio Engineering organized a meeting with Dr. Hassan Aouil, director of Sigma Technical Services. At the meeting, Dr. Aouil made a presentation about university-industry relations. Students majoring in electronics and computer science participated in the meeting.



"MÜXTƏLİF DİNİ QRUPLARIN CƏMİYYƏTƏ İNTEQRASİYASINDA MÖVCUD OLAN PROBLEMLƏRİN ARADAN QALDIRILMASI"

Oktyabrın 6-da Xəzər Universitetinin Dillər və mədəniyyətlər departamenti ilə "Jurnalistlər Ekstremal Şəraitdə" İctimai Birliyinin birgə təşkilatçılığı ilə universitetdə "Müxtəlif dini qrupların cəmiyyətə inteqrasiyasında mövcud olan problemlərin aradan qaldırılması" mövzusunda tədbir keçirildi. Tədbirdə Dillər və mədəniyyətlər departamentinin müdiri, fəlsəfə doktoru Elnurə Əzizova, Fəlsəfə departamentinin müdiri, fəlsəfə doktoru Mail Yaqubov, Jurnalistika departamentinin koordinatoru Cabir Məmmədov, "Jurnalistlər ekstremal şəraitdə" İctimai Birliyinin rəhbəri Firuzə Əsədullayeva, birliyin idarə heyətinin üzvləri Tofiq Türkel, Elxan Xanəlizadə, Xəzər Universitetinin əməkdaşları və tələbələri iştirak edirdilər.

F.Əsədullayeva və T. Türkel dinlər daxilində müxtəliflik və dini vəhdət, dini icmaların cəmiyyətin tərkib hissəsi kimi rolu, din və radikalizm münasibətləri ilə əlaqəli məlumat verdilər.

E. Əzizova və M. Yaqubov mövzunun dini və ictimai yönləri, beynəlxalq siyasi və iqtisadi hadisələrin məsələyə təsiri haqqında çıxış etdilər. Çıxışların sonunda tələbələrin fəal iştirakı ilə mövzu ətrafında müzakirə aparıldı.

Tədbirin sonunda dini icmaların cəmiyyətə inteqrasiyasına dəstək xarakterli təkliflər irəli sürüldü.

ALMANİYALI MÜTƏXƏSSİSİN "XƏZƏR"DƏ MÜHAZİRƏSİ

Oktyabrın 12-də Xəzər Universiteti Dillər və mədəniyyətlər departamenti ilə Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun birgə təşkilatçılığı ilə elmi seminar keçirildi. Tədbirdə Almaniyanın Vürtsburq Universitetinin professoru, Osvald fon Volkenştayn Cəmiyyətinin prezidenti Ziqlinde Hartman "Dədə Qorqud" dastanının yenidən kəşf olunmasında alman romantizminin təsiri" adlı elmi mühazirə ilə çıxış etdi. O, alman romantizminin yaranması və Avropa xalqlarının ədəbiyyatına təsiri prosesindən, xüsusilə qəhrəmanlıq dastanlarının kəşfinin milli mədəniyyətlərin başlanğıcı olması kontekstində "Dədə Qorqud" dastanının yenidən kəşfinin əhəmiyyətindən danışdı.

Mədəniyyətlərarası təsirin ədəbiyyat sahəsindəki gözəl nümunəsini göstərən mühazirə sual-cavabla başa çatdı. Tədbirdə Dillər və mədəniyyətlər departamentinin müdiri, fəlsəfə doktoru Elnurə Əzizova, Jurnalistika departamentinin koordinatoru Cabir Məmmədov, Bilik Fondunun əməkdaşları və tələbələr iştirak edirdilər.

GERMAN SPECIALIST GIVES LECTURE AT KHAZAR

On October 12, a scientific seminar was jointly coordinated by the Khazar University Department of Languages and Cultures and the Knowledge Fund of the President of the Azerbaijan Republic. At the event, Ziglinde Hartman, President of the Oswald von Wolkenstein Society and Professor of the University of Würzburg, gave a lecture entitled "The influence of German romanticism in the rediscovery of the Dede Gorgud Dastan." After Professor Hartman spoke about the development of German romanticism and its influence on the literatures of other European nations, especially in the context of national cultures finding their beginning in the discovery of dastans of the heroism era, she spoke about the significance of the rediscovery of Dede Gorgud.

The lecture, which showed a clear example of cross-cultural influence in literature, ended with a question-and-answer session. Participants in the event included Dr. Elnura Azizova, Head of the Department of Languages and Cultures; Jabir Mammadov, Head of the Department of Journalism; representatives of the Knowledge Fund; and students.

Könül Qasımova



HÜQUQ TƏDRİS MƏRKƏZİNDƏ TƏLİM KEÇİRİLDİ

Oktyabrın 10 - 11- də Hüquq Tədris Mərkəzində **"Avropa İnsan Hüquqları Konvensiyasının təhlili"** mövzusunda təlim keçirildi. Təlimi Avropa İnsan Hüquqları Assosiyasiyasının üzvü, Avropa İnsan Hüquqları Məhkəməsində (AİHM) hüquqşünas işləmiş Könül Qasımova aparırdı. Təlimdə Xəzər Universitetinin tələbələri ilə yanaşı, Bakı Dövlət Universitetinin, Azərbaycan Respublikasının Prezident yanında Dövlət İdarəçilik Akademiyasının, Kiyev Dövlət Universiteti Hüquq fakültəsinin bakalavr və magistr tələbələri, dövlət qurumlarında və müxtəlif hüquq şirkətlərində çalışan hüquqşünaslar iştirak edirdilər.

Təlimin açılışında Hüquq Tədris Mərkəzinin rəhbəri Cabir Xəlilov çıxış edərək, iştirakçıları salamladı və onlara işlərində uğurlar arzuladı. Təlimdə AİHM-nə şikayətlərin verilməsi qaydası müzakirə olundu, iştirakçılar Avropa İnsan Hüquqları Konvensiyasının müxtəlif maddələri və AİHM-nin qərarları ilə yaxından tanış oldular.

Təlimin keçirilməsi üçün iki gün nəzərdə tutulsa da, təlim maraqlı və məhsuldar keçirildiyinə görə, iştirakçılar təlimin davam etdirilməsi üçün müraciət etmişlər. İştirakçıların müraciətlərini nəzərə alaraq, təlimin davamı növbəti aylarda da planlaşdırılır.





LEGAL TRAINING CENTER EVENT

On October 10-11, 2015, a training was held on the topic of **"Analysis of the European Convention on Human Rights"** in the Legal Training Center. The training was led by Konul Gasimova, member of the European Human Rights Association and former lawyer in the European Court of Human Rights. Participants included undergraduate and graduate students from Khazar University, Baku State University, the State Administration Academy of the President of the Azerbaijan Republic, and Kiev State University, as well as lawyers working in government and in various legal corporations.

Jabir Khalilov, Head of the Legal Training Center, opened the event by greeting participants and wishing them success in their future work. Then participants discussed the process of taking complaints to the European Court of Human Rights and were familiarized with certain decisions of the court as well as selections from the European Court of Human Rights.

The training was planned to be held over two days, but it was so interesting for the participants that they requested that it be continued. Per the requests, a continuation of the training has been planned for the coming months.





BİRİNCİ KURS TƏLƏBƏLƏRİ İLƏ GÖRÜŞ









Oktyabrın 17-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının "Dünya" Məktəbinin akt zalında birinci kurs tələbələri ilə görüşü keçirildi. Görüşü giriş sözü ilə açan universitetin rektoru professor Hassan Niknafs tədbir iştirakçılarını salamladı və görüşün əhəmiyyətindən danışdı.

Fakültə dekanları yeni qəbul olunan tələbələr haqqında məlumat verdilər və bu il çoxlu sayda yüksək bal toplayan tələbələrin Xəzər Universitetinə gəlişindən məmnun olduqlarını bildirdilər.

Sonra H. İsaxanlının həyat və fəaliyyətinə aid sənədli film nümayiş etdirildi və o çıxış edərək, özünün məktəb həyatından, tələbəlik illərindən yaradıcılıq fəaliyyətindən geniş danışdı.

Sonda H.İsaxanlı tələbələrin çoxsaylı suallarını cavablandırdı, xatirə şəkilləri çəkildi.

Tələbələr Xəzər Universitetinin "Dünya" məktəbinin kampusunda fəaliyyət göstərən laboratoriyaları ilə də tanış oldular.

MEETING WITH FRESHMEN







On October 17, 2015, Prof. Hamlet Isaxanli, founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, met with freshman students in the auditorium of Dunya School. Professor Hassan Niknafs, President of the University, opened the event and spoke about its significance.

Then Deans of Schools gave information about the new students, emphasizing that many students with high entrance exam scores had been admitted this year. Dr. Niknafs gave the floor to Prof. Isaxanli, who spoke about his own student years and creative activities.

At the end of the event, Prof. Isaxanli answered many questions from the students and group photos were taken.







NOBEL MÜKAFATI



LAUREATLARI 2015

FİZİOLOGİYA VƏ TİBB ÜZRƏ



William C. Campbell



Satoshi Ōmura

Fiziologiya və tibb üzrə mükafata İrlandiya, Yaponiya və Çin alimləri layiq görülüblər.

İrlandiyadan Uillyam Kampbell (William C. Campbell), Yaponiyadan Satoşi Omura (Satoshi Ōmura) parazitlərin səbəb olduğu infeksiyaların müalicəsinin müəyyən edilməsinə görə mükafatı paylaşırlar.

Çinli Youyou Tu (Youyou Tu) malyariyaya yoluxanların ölüm hallarının azaldılmasına yol açan dərman ixtirasına görə mükafata layiq görülüb.

Nobel Mükafatı Komitəsi bu iki ixtiranı yüz milyonlarla insanın məruz qaldığı xəstəliklərin müalicəsində misilsiz inkişaf adlandırıb.

Kampbell Nyu-Cersi ştatının Dryu Universitetinin alimidir.

Farmakologiya və kimya üzrə iki doktorluq dərəcəsi əldə edən Omura Yaponiyanın Kitasato Universitetində çalışır.

Tu isə Çinin Ənənəvi Təbabət Akademiyasının baş professorudur.

Youyou Tu



FİZİKA ÜZRƏ




Takaaki Kajita | Arthur B. McDonald

Fizika üzrə mükafatı neytrinonun kütləsinin mövcud olmasını təsdiq edən neytrino ossilyasiyalarının kəşfinə görə iki alimə - yaponiyalı Takaaki Kodzitaya (Takaaki Kajita) və kanadalı Artur Makdonalda (Arthur B. McDonald) verilib.

Onlar kainatın zəngin olduğu fotonlardan sonra ikinci hissəcik olan neytrinonun hərəkətini müəyyən etmişlər.

Nobel Komitəsinin bəyanatında deyilir ki, Tokio Universitetinin alimi Takaaki və Kanadanın Kraliça Universitetinin alimi Makdonald dünyanın bu hissəciklərlə bağlı təsəvvürünü dəyişiblər.

KİMYA ÜZRƏ



Tomas Lindahl | Paul Modrich | Aziz Sancar

Kimya üzrə mükafat Böyük Britaniyadan olan alim Tomas Lindal (Tomas Lindahl), ABŞ alimləri Pol Modriç (Paul Modrich) və Əziz Səncərə (Aziz Sancar) verilib.

Nobel Komitəsi bildirib ki, onlar zədələnən DNT-nin "təmiri" və genetik informasiyanın saxlanılması zamanı molekulyar səviyyəni göstərən üsulun tapılmasına görə bu mükafata layiq görülüblər.

Türk əsilli professor Əziz Səncər xərçəng xəstəliyi ilə bağlı əhəmiyyətli elmi işləri olan, dünyada tanınan alimdir. O, xərçəng xəstəliyində "ritmik saat" müalicəsinin müəllifidir.

Əziz Səncər hazırda ABŞ-ın Şimali Karolina Universitetinin Biokimya və biofizika fakültəsinin müəllimidir.

ƏDƏBİYYAT ÜZRƏ



Svetlana Alexievich

Ədəbiyyat üzrə mükafata Belarus yazıçısı Svetlana Aleksiyeviç (Svetlana Alexievich) layiq görülmüşdür. O, Nobel mükafatına "Polifonik yaradıcılığı - zəmanəmizdə iztirab və cəsarətə abidə qoyduğu üçün" sahib olub.

Svetlana Aleksandrovna Aleksiyeviç 1948-ci il mayın 31-də doğulub. Uzun müddət jurnalistika fəaliyyəti ilə məşğul olub. 1983-cü ildən SSRİ Yazıçılar Birliyinin üzvüdür. 2000-ci ildə Belarusda haqqında cinayət işi açıldığına görə ölkəsini tərk edib. İtaliya, Fransa və Almaniyada yaşayıb. On il sürgündə olan yazıçı 2011-ci ildə Belarusa geri qayıdıb.

Svetlana Aleksiyeviç "Müharibə qadın üzlü deyil", "Sink oğlanlar", "Ölümlə ovsunlanmışlar", "Çernobıl uşaqları", "Sekondxend zamanı" və başqa əsərlərin müəllifidir.

67 yaşlı yazıçı bir çox beynəlxalq mükafatın sahibidir. 2013-cü ildən adı Nobel mükafatı namizədləri arasında hallanırdı.

Svetlana Aleksiyeviç bu mükafata layiq görülən 14-cü qadın yazıçıdır.


SÜLH MÜKAFATI

Sülh Mükafatı Tunis Milli Dialoq Kvartetinə (TMDK) verilib. Nobel Komitəsinin bildirdiyinə görə, Tunis Milli Dialoq Kvarteti 2011-ci ildə baş vermiş "yasəmən inqilabı"ndan sonra Tunisdə plüralist demokratiyanın qurulmasında həlledici töhfəyə görə" bu mükafata layiq görülüb.

TMDK-YA ÜMUMÖLKƏ ƏMƏK İTTİFAQI, SƏNAYE, TİCARƏT VƏ ƏSNAF KONFEDERASİYASI, İNSAN HÜQUQUNU MÜDAFİƏ BİRLİYİ VƏ HÜQUQŞÜNASLAR ORDENİ DAXİLDİR.

Nobel Komitəsinin mətbuat bülletenində belə izahat verilmişdir:"Kvaetetə daxil olan təşkilatlar Tunis cəmiyyətinin müxtəlif təbəqə və dəyərlərini təmsil edirlər. Böyük mənəvi nüfuza malik olan kvartet Tunisin sülh yolu ilə demokratik inkişafında həlledici qüvvə rolunu oynayır. Buna görə də, Sülh mükafatı dörd təşkilata ayrı-ayrılıqda yox, məhz kvartetə verilmişdir.

İQTİSADİYYAT ÜZRƏ



Angus Deaton

İqtisadiyyat üzrə mükafat britaniyalı alim, mikroiqtisadiyyat üzrə görkəmli mütəxəssis Anqus Ditona (Angus Deaton) verilib. O, istehlak, yoxsulluq və rifah sahəsindəki analizlərinə görə mükafata layiq görülüb.

A. Diton 1945-ci ildə Edinburqda (Şotlandiya) anadan olmuşdur. Təhsilini və doktorluq elmi dərəcəsini Kembricdə alan iqtisadiyyatçı uzun müddət elə həmin universitetdə Tətbiqi iqtisadiyyat kafedrasında 1984-cü ilin Nobel mükafatı laureatı Riçard Ctounla (Richard Stone) birgə çalışmışdır. Hazırda ABŞ-ın Prinston Universitetində işləyir.

A. Ditona mükafat üç elmi nailiyyətinə görə - 1980-ci ildə Con Mülbauerlə birlikdə işləyib hazırladığı müxtəlif mallara tələbin müəyyənləşdirilməsi sisteminə, gəlirlə istehlakın əlaqələri haqqında çoxsaylı tədqiqatlarına və 1990-2000-ci illər ərzində inkişaf etməkdə olan ölkələrdə həyat səviyyəsinin və yoxsulluğun müəyyənləşdirilməsinə (evdar qadınlarla tədqiqat sayəsində) həsr olunmuş elmi işlərinə görə verimişdir.

NOBEL MÜKAFATININ TARİXÇƏSİ

Bu il 112-ci dəfə Nobel mükafatları verilmişdir. Ənənəyə görə, Nobel komitələri istər mükafata iddiaçıların özləri, istərsə də onların namizədliyini irəli sürənlər barədə lap son ana qədər heç bir məlumat vermir. Ona görə də, ekspertlər bu barədə yalnız ehtimallar söyləyə bilərlər.

Məşhur isveç ixtiraçısı, dilçi alimi və filosofu Alfred Nobel 1833-cü il oktyabrın 21-də İsveçdə anadan olmuş, 1896-cı il dekabrın 10-da İtaliyada vəfat etmişdir. Əsas sərvətini Bakıdakı neft mədənlərində qazanmış, həyatı boyu 355 ixtira patentləşdirmişdir. Onun ilk ixtiraları arasında dinamit və detonatorlar da var idi.

Alfred Nobelin 1895-ci il 27 noyabr tarixli vəsiyyətində fiziologiya və tibb, fizika, kimya, ədəbiyyat və bütün dünyada sülh işinə töhfə verilməsi sahələrində mükafatlar nəzərdə tutulurdu. 1968-ci ildə İsveç Bankı tərəfindən "İqtisadiyyat üzrə Nobelin xatirə mükafatı" təsis edilmişdir.

1900-cü ildə ilkin kapitalı 31 milyon İsveç kronu olan müstəqil Nobel fondu yaradılmışdır. Həmin vəsaitin 12,4 faizi və ya 3,74 milyon kronu Bakıdakı "Nobel qardaşları" şirkətindən Alfred Nobelin payına düşən səhmlərin hesabına idi.


Laureatlara Nobel mükafatının qızıl medal və diplomunun, həmçinin pul mükafatının təntənəli təqdimetmə mərasimi hər il Alfred Nöbelin vəfatı günündə - dekabr ayının 10-da Stokholm və Osloda keçirilir.

Nobel mükafatının məbləği əvvəlki illərdə hər nominasiya üzrə 10 milyon İsveç kronu (təxminən 1,48 milyon ABŞ dolları) idi. 2012-ci ildə Nobel fondu mükafatın dəyərini 20 faiz azaldaraq, 1,2 milyon dollar müəyyən etmişdi. Bu, dünya maliyyə sistemindəki böhranla izah olunmuşdu. Bu il mükafatın məbləği 8 milyon İsveç kronuna (972 min ABŞ dollarına) bərabərdir.



Surə Seyid

NAXÇIVAN MƏTBUATI TARİXİNƏ DAİR QİYMƏTLİ ARAŞDIRMA İNGİLİS DİLİNDƏ



Naxçıvan Dövlət Universitetinin tədris işləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Surə Seyidin "Naxçıvanda mətbuatın inkişaf tarixi ("Şərq qapısı" qəzetinin materialları əsasında)" adlı kitabı nəşr olunub. "Əcəmi" Nəşriyyat Poliqrafiya Birliyinin nəşri olan bu kitab ingilis dilində işıq üzü görüb. Kitabın tərcüməçisi filologiya üzrə fəlsəfə doktoru, dosent Fiyalə Abdullayevadır. Bu kitab müəllifin Naxçıvanda mətbuat tarixinin tədqiqinə həsr olunmuş sayca üçüncü kitabıdır.

XX əsrin əvvəllərində Naxçıvanda mətbuatın yaranmasını şərtləndirən başlıca amillər, "Kommunist, "Naxrespublika", "Cavanlar həyatı", "Füqəra səsi" kimi qəzetlərin nəşri kitabın ilk fəsillərinin başlıca tədqiqat obyektidir. Azərbaycanda mətbu nəşrlər sırasında az qala bir əsrlik tarixdə fasiləsiz nəşr olunan yeganə qəzet kimi "Şərq qapısı"nın fəaliyyətə başlaması ilə yeni mərhələyə qədəm qoyan mətbuatın keçdiyi şərəfli yol kitabın ikinci fəslinin aparıcı qayəsini təşkil edir. Kitabda, eyni zamanda, ilk dəfə olaraq XX əsrin 30-cu illərində Azərbaycanın tanınmış ədəbi simaları Mirzə İbrahimov və Əli Vəliyevin yaradıcılıq fəaliyyətinin Naxçıvan dövrü araşdırılır. 1933-cü ildə Naxçıvanda Mirzə İbrahimovun redaktorluğu ilə nəşr olunan "Ədəbiyyat" və Maşın Traktor Stansiyasının orqanı olan "Sürət" qəzetlərinin nəşri zərurəti, bu haqda müxtəlif mənbələrdəki faktlar ilk dəfə olaraq sistemləşdirilir və tədqiqata cəlb olunur.

Böyük Vətən Müharibəsi illərində Naxçıvanda mətbuatın inkişaf istiqamətləri də kitabda araşdırılan məsələlər sırasındadır.

Müstəqillik illərində yeni forma və məzmun kəsb edən "Şərq qapısı" qəzetinin dövlət və KİV münasibətlərinin tənzimlənməsindəki rolu da araşdırılan mövzular sırasındadır. Xüsusən, Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətində "Şərq qapısı" qəzetinin yeri və rolu müəyyən olunur, həmin dövr ayrıca tədqiqata cəlb olunur.

Kitabda ilk dəfə olaraq Azərbaycan ədəbiyyatı tarixinin öyrənilməsində «Şərq qapısı» qəzetinin rolu məsələsi aydınlaşdırılır. Eyni zamanda, Naxçıvanda tənqid və ədəbiyyatşünaslıq elminin formalaşması və inkişafında «Şərq qapısı» qəzetinin rolundan geniş bəhs edilir.

Müəllif bu nəticəyə gəlmişdir ki, "Şərq qapısı" qəzeti sözün həqiqi mənasında regionda ədəbiyyat, jurnalistika elm məktəbi funksiyasını yerinə yetirmiş, Naxçıvanda Şərqqapısışünaslıq elmi formalaşmış, qəzet tədqiqat obyektinə, elmin bir sahəsinə çevrilmişdir.

Kitabın ingilis dilində nəşr olunmasının əsas səbəbi Naxçıvanda mətbuatın yaranması və keçdiyi tarixi yol, bu sahənin inkişafı ilə bağlı Azərbaycanda həyata keçirilən islahatlar, dövlət və KİV münasibətlərinin qarşılıqlı inteqrasiyasını dünya oxucularına təqdim etmək, eyni zamanda ermənilərin Naxçıvana qarşı ərazi iddialarına mətbuatın dili ilə cavab verməkdir.

Şəhla Şirəliyeva,
Filologiya üzrə fəlsəfə doktoru, dosent





GÜRCÜSTANDA KEÇİRİLƏN BEYNƏLXALQ SİMPOZİUMDA NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ DƏ UĞURLA TƏMSİL OLUNUB

NDU-nun İngilis dili və tərcümə kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru Süsənbər Ağamalıyeva bu günlərdə Gürcüstanın paytaxtı Tiflis şəhərində İvane Çavaxişvili adına Tiflis Dövlət Universitetinin, Şota Rustaveli adına Gürcüstan Ədəbiyyat İnstitutunun və Gürcü Müqayisəli Ədəbiyyat Assosiasiyanın birgə təşkilatçılığı ilə keçirilən "Ədəbiyyatın müasir ənənələri" mövzusunda ənənəvi 9-cu beynəlxalq simpoziumunda iştirak edib.

Gürcü ədəbiyyatının klassiki, görkəmli Akaki Tsereteliyə həsr olunmuş, 18 ölkədən 120 nümayəndənin iştirak etdiyi beynəlxlaq simpoziumda Naxçıvan Dövlət Universitetini uğurla təmsil edən Süsənbər Ağamalıyeva "Müasir Amerika nəsrində Heminquey ənənələri" adlı elmi məruzə ilə ingiliscə çıxış edib. "Ernest Heminquey və Şərq" mövzusunda ciddi elmi axtarışlar aparan S. Ağamalıyeva məruzəsində XX əsr Amerika ədəbiyyatının görkəmli nümayəndəsi Ernest Heminqueyin yaradıcılığının müasir Amerika nəsrinin formalaşması və inkişafına təsiri məsələlərinə toxunaraq, yazıçının ədəbi irsinin böyük məktəb rolu oynadığını bildirib.

O, Ernest Heminqueyin "Əcəl zəngi" romanında Azərbaycan adını çəkməsindən, Azərbaycan ədəbiyyatında və ədəbiyyatşünaslığında yazıçıya olan münasibətdən bəhs edib, onu Şərqlə bağlayan məsələlərə toxunub.

Gənc tədqiqatçı alimin elmi məruzəsi öz aktuallığ ilə seçilib və maraqla qarşılanıb. Belə ki, simpoziuma təqdim edilmiş ən yaxşı məruzələrdən biri hesab olunaraq, digər 8 azərbaycanlı alimin elmi məruzəsi ilə yanaşı nəşrə tövsiyə olunan simpozium məqalələri sırasına daxil edilib, eyni zamanda, Təşkilat Komitəsinin sertifikatına layiq görülüb

Mehriban Sultan,
NDU-nun Mətbuat şöbəsinin müdiri

YESENİNŞÜNAS TƏDQİQATÇI İSAXAN İSAXANLININ YARADICILIĞINA AİD MƏQALƏLƏR DƏRC OLUNMUŞDUR

525.az 525-ci qəzet

və

Ədəbiyyat QƏZETİ

Xəzər Universitetinin vebsaytında və ölkə KİV-lərində xəbər verildiyi kimi, bu il oktyabrın 2-də universitetin prorektoru, pedaqoji elmlər üzrə fəlsəfə doktoru İsaxan İsaxanlının Yesenin yaradıcılığı ilə bağlı apardığı araşdırmaları öz layiqli qiymətini almış, ona Rusiyada Serqey Yesenin adına təsis edilmiş 2 yüksək mükafat – 2015-ci il ədəbiyyat üzrə Beynəlxalq Yesenin mükafatı – "О Русь, взмахни крылами..." (Moskva, Rusiya Yazıçılar Birliyi) və 2015-ci il Ədəbiyyat və incəsənət sahəsində Yesenin mükafatı (Ryazan, Rusiya) təqdim edilmişdir.

Bu münasibətlə Azərbaycan mətbuatında məqalələr çap olunmaqdadır. Ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, professor Nizami Tağısoyun da iki məqaləsi - "525-ci qəzet"in 1 oktybr 2015-ci il tarixli nömrəsində "Serqey Yeseninin "İran nəğmələri"nin yeni təqdimatı", "Ədəbiyyat qəzeti"nin 10 oktyabr 2015-ci il tarixli nömrəsində "Serqey Yeseninin "İran nəğmələri" ilə yeni görüş" sərlövhəli məqalələri dərc olunmuşdur.

Qeyd edək ki, N. Tağısoy Rusiyada nəşr edilən "Literaturnaya qazeta"ya da bu məzmunda məqalə göndərmiş və çap üçün qəbul edilmişdir. Müəllifin "Ədəbiyyat qəzeti"ndəki məqaləsi jurnalın 61-ci səhifəsində dərc olunur.

Kredo
GƏNCLİYİN SƏSİ - GƏLƏCƏYİN NƏFƏSİ

Oktyabrın 16-da "Kredo" qəzetinin 42-ci (850) nömrəsində şair-publisist Əli Rza Xələflinin "Məni söz çağırdı, yaxud bir daha Yeseninşünas, şair-tərcüməçi İsaxan İsaxanlının ədəbi yaradıcılığı haqqında düşüncələr" adlı məqaləsi dərc olunmuşdur. Məqalə Xəzər Universitetinin prorektoru İsaxan İsaxanlının elmi yazılarından bəhs edilmişdir. Müəllif yazıda İ.İsaxanlının Yesenin haqqında apardığı tətqiqatlara, yazdığı monoqrafiyalara toxunur.

Məqaləni bu linkdən oxumaq olar:

http://www.khazar.org/news/2015/Isaxan-Isaxanli-2015-ci-il-edebiyyat-uzre-Beynelxalq-Yesenin-mukafati-laureatidir_7149.html#2

Kacnuй
ГАЗЕТА ТРЕХ СТОЛИЦ
online

"Кастий" qəzetinin 22 oktybr 2015-ci il tarixli nömrəsində Firəngiz Xancanbəyovanın "Незадаром ему мигнули очи" adlı məqaləsi dərc olunmuşdur. Müəllif rusdilli oxuculara İsaxan İsaxanlının Rusiyada Yeseninin adını daşıyan iki nüfuzlu mükafata layiq görüldüyü barədə məlumat verir. İrihəcmli məqalədə, həmçinin, İ. İsaxanlının yeseninşünas tədqiqatçı kimi çoxşaxəli elmi fəaliyyətindən bəhs olunur. Məqaləni oxucularımıza təqdim edirik.

"UNİVERSİTETLƏRDƏ ÖMÜRBOYU TƏHSİL" MÖVZUSUNDA İKİNCİ BEYNƏLXALQ KONFRANS

Oktyabrın 12-dən 14-dək "Universitetlərin Ömürboyu Təhsil İnstitutu kimi rolunun gücləndirilməsi" TEMPUS layihəsi çərçivəsində Tbilisi Dövlət Universitetində "Universitetlərdə Ömürboyu Təhsil" mövzusunda ikinci beynəlxalq konfransı keçirilmişdir. Konfransda Gürcüstan, Avstriya, Estoniya və Almaniyadan olan tərəfdaş universitetlərin əməkdaşları, Gürcüstanın digər universitetlərindən nümayəndələr və Xəzər Universitetinin əməkdaşı, İnkişaf mərkəzinin layihə meneceri Ülkər Bayramova iştirak etmişlər.

Ü. Bayramova "Xəzər Universitetində ömürboyu təhsil konsepsiyası" adlı təqdimatla çıxış etmiş və suallara cavab vermişdir. Təqdimat konfrans iştirakçıları tərəfindən maraqla qarşılanmış və universitetdə görülən işlər yüksək qiymətləndirilmişdir.

Nizami Tağısoy


Sergey Yeseninin "İRAN NƏĞMƏLƏRİ" İLƏ YENİ GÖRÜŞ



2015-ci ilin oktyabrın 3-də S.A.Yeseninin anadan olmasının 120 illiyi tamam olur. Bu poeziya nəhənginin doğum tarixi Rusiyada mütəmadi olaraq qeyd olunsa da, Azərbaycanda da böyük şairin yubileyinə daim münasibət yetərincə ardıcıl olmuşdur. Bu baxımdan Yeseninşünas İsaxan İsaxanlının geniş oxucu auditoriyasına təqdim etdiyi "Sergey Yesenin. İran nəğmələri" Bakı, "Xəzər Universitəsi nəşriyyatı", 2015" – kitabı forma, struktur, sistem, poliqrafiya, dizayn, məzmun və s. baxımdan diqqəti cəlb etməkdədir. İ.İsaxanlı kitabda Yesenin poeziyasının episentrində dayanan "İran nəğmələri" silsiləsinə daxil olan günümüzə qədər mövcud olan Azərbaycan dilinə edilmiş bütün tərcümə variantlarını (9 tərcüməçi və 61 tərcüməni) oxucuların ixtiyarına vermişdir.


Bilindiyi kimi, Sergey Yesenin Azərbaycanda qeyri-milli ən populyar və çox müraciət olunan poetik fikir sahiblərindəndir. Yəqin elə buna görə də onun adı, həyatı, həyatının müxtəlif fraqmentləri, əsərləri, o cümlədən onun Azərbaycanda, Bakıda olduğu dövr ziyalılar, tədqiqatçılar, tənqidçilər, ədəbiyyatşünaslar, ədəbi əlaqələri təhlil obyektinə çevirənlər tərəfindən dəfələrlə müxtəlif yönlərdən öyrənilmişdir. S.Yeseninin əsərlərini müxtəlif prizmalardan öyrənən, tədqiq edən, onun şeirlərini tərcümə edib və özünə şeirlər həsr edən müəlliflərin adlarının siyahısı bəlkə də neçə səhifə yer apararadı. Onların hamısının adlarının çəkilməsinə bəlkə lüzum da yoxdur, lakin onların hamısından bu sahədə ən çox 90-cı illərin əvvəllərindən ardıcıl olaraq Qalina Şipulina fəaliyyət göstərmişdir.

Onun "Sergey Yesenin dilinin lüğəti" çoxcildli əsəri şairin yaradıcılığının ilk leksikoqrafik təsvirini vermək baxımından əhəmiyyətli mənbədir. Bununla belə son dövrlərdə bu istiqamətdə aparılan təhlil və tədqiqatlarda İsaxan İsaxanlının ön plana çıxdığını və böyük zəhmət sərf etdiyini görməkdəyik.



Ayrı-ayrı məcmuə, jurnal, dövrü mətbuatda (həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda) çıxış və məqalələrini nəzərə almadan, İ.İsaxanlı Yeseninşünaslığa bir sıra sanballı kitablar bəxş etmişdir ki, onların sırasında "Şeir gülüstanının təkrarolunmaz çiçəyi – Sergey Yesenin" (Bakı, Xəzər Univeritəsi Nəşriyyatı, 2010, 372 s.), "Незадаром ему мигнули очи. Есенин в Баку" (Баку, Изд-во "Хазар Университети", 2012, 373 s.) əsərlərini göstərmək olar. Bu nümunələrdə S.Yeseninin Azərbaycanla əlaqələri, yaradıcılığının Bakı dövrü, əsərlərinin dilimizə tərcümələri və s. bağlı maraqlı mülahizə və fikirlər yer almışdır.

Yorulmaz tədqiqatçının S.A.Yeseninin 120 illik yubileyinə həsr olunmuş növbəti kitabı da olduqca maraqlı kompozisiya və məzmunla yüklənmişdir. Kitabda "İran nəğmələri" silsiləsinə daxil olan bütün şeirlərin mövcud tərcümələri orijinalla birgə oxuculara təqdim olunmuşdur. Burada oxucu hər bir tərcüməni orijinalla və bir-biri arasında müqayisə etməklə S.Rüstəm, Ə.Kürçaylı, S.Məmmədzadə, E.Borçalı kimi tanınmış şair mütərcimlərlə bərabər, F.Mustafa, Q.Xalid, İ.İsaxanlı, G.Mövlud və R.İsayev kimi çağdaş dövrdə bu sənətlə məşğul olanların tərcümələri ilə qarşılaşdırma imkanı əldə edir, kimin orijinala daha yaxın, kimin iş prosesində ondan uzaqlaşdığının şahidi olur.



İ.İsaxanlının təqdim etdiyi kitabın başlıca mahiyyəti, bir tərəfdən, əgər S.Yesenini yenidən Azərbaycan oxucusuna doğmalaşdırmaq və yaxınlaşdırmaqdırsa, digər tərəfdən, tərcümə sənətinin özünəməxsus və təkrarolunmaz yaradıcılıq olduğunu göz önünə gətirmək, ona bir daha həm tərcümə nəzəriyyəçilərinin, həm də praktik poetik tərcümə işi ilə məşğul olanların diqqətini yönəltməkdən ibarətdir.


Kitab redaktorun (İ.İsaxanlı) yazdığı "Əziz oxucu"suna müraciəti ilə başlayır. Burada o, XX əsrin Puşkini kimi qəbul edilən S.Yeseninin "İran nəğmələri"nin nə üçün orijinal və tərcümələrlə yanaşı təqdim etdiyinin zəruriliyini, S.Yeseninin "İran nəğmələri" ilə Bakıya və İrana qoyduğu ədəbi sevgi heykəlinin mahiyyətini açıqlayır. Nə üçün S.Yeseninin "Персидские мотивы" ifadəsinin müxtəlif müəlliflər tərəfindən "İran nəğmələri", "Fars motivləri", "Şərq motivləri", "Fars tərənələri", "İran xəyalları", "Fars havaları" kimi tərcümə edildiyini, "motiv", "nəğmə", "xəyal" kimi sözlərin leksik və semantik tutumunu aydınlaşdırır, təqdim edilmiş şəkildə "motiv" sözünün Azərbaycan dilinə tərcüməsi kontekstində məhz "nəğmə" sözü ilə əvəzləndirilməsinə və səsləndirilməsinə üstünlük verildiyini və bu şəkildə tərcümə olunmasını izah edir.

S.Yesenində nikbinliklə bədbinlik, nostalji hisslərin qucağı iki qoşa qanad idi. Bunların hər ikisi onun həyatının mahiyyəti idi. Onun fikri-zikri olumla ölüm arasında vurnuxurdu. Onların hər ikisi onun yaradıcılığı üçün qida mənbəyi, yaşam tərzi idi. Şairin köhnə yarası da bəlkə elə buna görə qövr etmirdi, gözəl laləyə "sevirəm"deyib ona "mənimsən" sözünü neçə anlatması da, Ryazan çölünü Şirazdan üstün tutması da, ay işığındakı dalğalı çovdarın onun saçlarına bənzəməsi də, onun şair olaraq doğulduğuna

görə şair kimi öpməsi də, keçmiş həyatın onu qəlbini oxşamaması da, al yanaqların gizlində saxlanması da, Xəyyamın demədiyi nəğmələri eşitməsi də, havanın təmizliyində, şəffaflığında, sərinliyində bağla gedib bir pəri səsini asta eşitməsi də, hər yerə nəzər salıb gözəllikdən zövq alması da, Xorasandakı qapıları şair əlləri açmayanda da, İranı tərk edib Rusiyaya dönəndə də, Firdovsinin gənclik vətəni mehriban "urus"un qəmli gözlərini görəndə də, şairin taleyi dərbədər olanda da, İranda bir nəğmə yadigar qoyanda da, qəlbinə çöllər həmdəm olanda da, öz yarıyla görüşməyə gedəndə də, qısqanclıq oduyla alışıb-yananda da, səfil kimi ölməyə hazır olanda da, məhəbbət mahnısı oxuyanda da, köksünü ötürüb nəğmə qoşanda da, tirəyindən qopan nəğmələri Tehran ayını isitməyəndə də, Xorasan bağları, evləri üstə ayın solğun ziyası görünməyəndə də, qızılgül ləçəklərini titrədəndə də, döntüklüyün, göz yaşının dünyada əzab olduğunu görəndə də, çıraqban gecələrin müqəddəsliyini dərk edəndə də, səadətin onun dəli könlünü aldatdığını hiss edəndə də, bülbüllərin dediyi nəğmələrə qulaq asıb ondan həzz alanda da, nəğmələr tirəyə yol tapanda da, bülbül gülü çağıranda da, ömrü nəğməyə büsbütün axanda da, bülbül güllə öpüşəndə də, könlünün səsi nəğməyə satılanda da, çiçəklər onun üzümə güləndə də və s. məqamlarda S.Yesenin yalnız özü kimi görünürdü. Öz xəyal dünyası ilə yaşayırdı. Nədən bəhs edir, nə barədə yazır-yazsın, onun əsərləri səmimiliyi, aydınlığı, obrazların sadəliyi ilə diqqəti ilə cəlb edir. Elə "İran nəğmələri"nə daxil edilmiş "Улеглась моя былая рана…", «Шаганэ, ты моя, Шаганэ…», «Никогда я не был на Босфоре….», «Свет вечерний шафранного края…», «В Хороссане есть такие двери…», «Быть поэтом – это значит то же…», «Глупое сердце, не бейся…» (şeirlərin adını ona görə rus dilində, tərcüməsiz veririk ki, hər mütərcim onları özü bildiyi kimi adlandırmışdır) və s. kimi nümunələr böyük sənətkarın zəngin və əhatəli poetik potensialının aynası kimi qarşımızda dayanır.

"İran nəğmələri"nə daxil olan bəzi şeirləri (məsələn, "Улеглась моя былая рана…"(Ə.Kürçaylı, S.Məmmədzadə, Q.Xalid, F.Mustafa, E.Borçalı, İ.İsaxanlı); "Ты сказала, что Саади…" (Ə.Kürçaylı, S.Məmmədzadə, F.Mustafa, E. Borçalı, İ.İsaxanlı, R.İsayev), "В Хороссане есть такие двери…" (S.Rüstəm, Ə.Kürçaylı, S.Məmmədzadə, Q.Xalid, E.Borçalı, İ.İsaxanlı) altı; «Я спросил сегодня у менялы…» beş; "Шаганэ, ты моя, Шаганэ", «Никогда я не был на Босфоре…», «Свет вечерний шафранного края…», «Руки милой – пара лебедей…», «Отчего луна так светит тускло…» dörd; qalanları isə ən azı üç mütərcim tərəfindən dilimizdə səsləndirilmişdir. Bu tərcümələrdən hər birində orijinal ayrı-ayrı mütərcimlərin təfəkküründə özünəməxsus struktur, düzüm və intonasiya əldə etmişdir.

Biz yuxarıda kitabın dizaynı, poliqrafiyası və s. haqqında ötəri qeydlər etmişdik. Burada bir daha söyləyək ki, "İran nəğmələri" kitabının həm üz qabığı, həm də buraya daxil edilmiş, hər şeir üçün xüsusi olaraq hazırlanmış illüstrasiyalardan hər biri həm kitabın ümumilikdə, həm də ayrı-ayrı



şeirlərin məzmun və ruhuna uyğunluğu oxucunu S.Yeseninin özünəməxsus "poetik İran" dünyasına salır, onu bu nəğmələrə kökləyir, hisslərini kövrəldir, onu şeirlərin yazıldığı məkana və dövrə qaytarır. Bir sözlə, S.Yeseninin "İran xronotopları"nı gözümüz qarşısında canlandırır. Bu illüstrasiyalardan biz Bakının qala divarlarını, Azərbaycan, İran, ümumiyyətlə, Şərq koloritini, qızılgüllərlə əhatələnmiş gözəli, Bosfor boğazını, İstanbul şəhərindəki məscidi, onun minarələrini, səhrada aramla addımlayan dəvələri, rus ağcaqayınını, şərqli qızların çadrada yerişlərini və çadra altından baxışlarını, Həsənin neyinin həzin səsini, göldə gecə qaranlığında ay işığının bərq vurduğu anda sevən gənclərin güllər içində sahildə bir-birinə sarışmasını, ağ göyərçinlərin sevən qızın niskilinə, həsrətinə son qoyub, onun sevgilisinə qovuşacağı inamını, qızılgüllər səpilmiş Xorasan qapılarının kandarını, ondan bir az kənarda qarla örtülmüş rus çöllərini və ağcaqayın meşələrini, S.Yeseninin yazı masasını, onun arxasında xəyallara dalıb düşündüyünü, şairin zaman, vaxt haqqında fikir və hisslərini, iki qu quşunun onun sevgilisinin əllərinə bənzədiyini, ayın solğun çöhrəsinə baxa-baxa iki sevgilinin bir-birinə yaxınlaşıb pıçıldamasını, köhnə Bakının uzaqda görünən panoramını, ondan bir az yaxında sahilə sinə gərən şahə qalxan tələtümlü ləpələri və s. görmək mümkündür.


İ.İsaxanlı S.Yeseninin "İran nəğmələri"ni yenidən oxuculara təqdim edərkən heç də yalnız şairin yaradıcılığının pərəstişkarı kimi çıxış etmir. O, əsil Yeseninşünas kimi ortada dayanır. İ.İsaxanlı, bir tərəfdən, rus şairinin pərəstişkarıdırsa, digər tərəfdən, onun əsərlərinin ən diqqətli tədqiqatçılarından, üçüncü bir tərəfdən, Yesenin əsərlərini ardıcıl olaraq Azərbaycan dilində səriştəli səsləndirən mütərcimlərdəndir.

Pərəstişkar, tədqiqatçı və mütərcim kimi İ.İsaxanlının araya-ərsəyə gətirdiyi bu kitab müxtəlif yönlərdən təhlil edilməyə layiqdir.

P.S. 28 sentyabr – 4 oktyabr aralığında İsaxan İsaxanlı Rusiyanın Moskva və Ryazan şəhərlərində böyük rus şairi Sergey Yeseninin anadan olmasının 120 illiyi münasibətilə keçirilən bir sıra tədbirlərdə iştirak etmişdir.

Yubiley ərəfəsində İsaxan İsaxanlının Yesenin yaradıcılığı ilə bağlı apardığı araşdırmalar layiqincə qiymətləndirilmiş, ona Rusiyada Sergey Yesenin adına təsis edilmiş 2 yüksək mükafat - **2015-ci il Ədəbiyyat üzrə Beynəlxalq Yesenin mükafatı – «О Русь, взмахни крылами...» (Moskva, Rusiya Yazıçılar Birliyi) və 2015-ci il Ədəbiyyat və İncəsənət sahəsində Yesenin mükafatı (Ryazan, Rusiya)** təqdim edilmişdir.

Həmvətənimizə verilən bu yüksək mükafatlar haqqında Rusiyanın mərkəzi mətbuat orqanlarından olan «Pravda» qəzetində, Rusiyanın bir sıra mərkəzi saytlarında, eləcə də Ryazan mətbuatında məlumatlar yayılmışdır.



Ədəbiyyat qəzeti,
10 Oktyabr 2015-ci il





STRİKE PLAGİARİSM

ŞİRKƏTİ PLAGİATA QARŞI TƏLİM KEÇİRDİ

Oktyabrın 16-da Xəzər Universitetinin müəllimləri və işçiləri üçün plagiata qarşı təlim keçirildi. Təlimdə "Strike Plagiarism" şirkətinin nümayəndələri Səbinə Əliyeva və Xəyalə Abdullayeva "Strike Plagiarism" vebsaytını təqdim edərək, iştirakçılara saytın imkanları, istifadə qaydaları haqqında geniş məlumat verdilər.

Humanitar və sosial elmlər fakültəsinin dekanı Cabir Xəlilov, İqtisadiyyat və menecment fakültəsinin dekanı İnqilab Əhmədov, departament müdirləri, universitet əməkdaşları, kitabxanaçılar təlimdə iştirak etdilər.

Xatırladırıq ki, bu ilin sentyabrında universitet plagiata qarşı "Strike Plagiarism" şirkətinin xidmətlərinə abunə olmuşdur. Bu xidmət universitet işçilərinə istənilən sənədin elektron versiyasını vebsayta yükləməklə neçə faizinin plagiat olub-olmamasını öyrənməyə imkan verir.

ANTI - PLAGIARISM TRAINING BY STRIKE PLAGIARISM

On October 16th, an anti-plagiarism training session was held for Khazar University instructors and faculty/staff members. The trainers were Sabina Aliyeva and Khayala Abdullayeva, Strike Plagiarism company representatives. During the training, they demonstrated the Strike Plagiarism website and explained how it is used.

Associate Professor Jabir Khalilov, Dean of the School of Humanities and Social Sciences; Dr. Ingilab Ahmadov, Dean of the School of Economics and Management; department heads; librarians; and other representatives from the university administration participated in the training.

In September 2015, the university signed a contract with the Strike Plagiarism company. Their services allow the university staff to upload electronic documents to the Strike Plagiarism website to check them against plagiarism.



AMEA Milli Azərbaycan Tarixi Muzeyinin yaradılmasının 95 illiyi və "Virtual Qarabağ Tarixi Muzeyi"nin təqdimatı

Oktyabrın 21-də AMEA Milli Azərbaycan Tarixi Muzeyinin "Şərq" zalında muzeyin yaradılmasının 95 illiyi və Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə Azərbaycanda ilk dəfə təşkil edilmiş "Virtual Qarabağ" İKT mərkəzinin hazırladığı "Virtual Qarabağ Tarixi Muzeyi"nin təqdimatına həsr olunmuş tədbir keçirildi.

Mərasimdə dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, elmi ictimaiyyətin nümayəndələri, ictimai qurumların, gənclər təşkilatlarının rəhbərləri, həmçinin Xəzər Universitetindən Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova, Təhsil fakültəsinin dekanı Elza Səmədova, digər əməkdaşlar və tələbələr də iştirak edirdilər.

Tədbirdə AMEA Milli Azərbaycan Tarix Muzeyinin yaradılmasının 95 illiyi münasibətilə Xəzər Universiteti adından təbrik məktubu və hədiyyələr təqdim olundu.





MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN DİREKTORU AKADEMİK NAİLƏ VƏLİXANLIYA

Hörmətli Nailə Xanım və muzeyin əməkdaşları!

Sizi və bütün əməkdaşlarınızı Milli Azərbaycan Tarixi Muzeyinin 95 illik yubileyi münasibətilə Xəzər Universitetinin bütün işçi kollektivi və tələbələri adından təbrik edirik. Böyük zəhmətlə qurulan Milli Azərbaycan Tarixi Muzeyi xalqımızın tarixi və mədəniyyətində mühüm yer tutur.

300 mindən artıq eksponatı olan Milli Azərbaycan Tarixi Muzeyi tariximizin bütün dövrlərinin təzahürlərini özündə əks etdirir. Tələbələrimiz sizin təşkil etdiyiniz elmi konfranslarda həvəslə iştirak edirlər. Gənclərdə vətənpərvərlik hisslərinin gücləndirilməsi və gənc nəslin vətənimizin tarixini, mədəmiyyətini dərindən mənimsəməsi dövlətçiliyimizin qorunması, xalqımızın gələcəyi baxımından olduqca vacibdir. Muzeyiniz gənc nəslin tariximizi öyrənməyində mühüm rol oynayır. Sizə məhz bu xidmətləriniz üçün də təşəkkür edir, bizim və tələbələrimizin sizinlə əməkdaşlığımızı daim davam etdirmək niyyətində olduğumuzu bildirmək istərdik.

Azərbaycan tarixinin nadir və əvəzsiz incilərini qoruyub saxlayan, onların təbliği və dünyaya tanıdılması işi ilə məşğul olan kollektivinizə bir daha Milli Azərbaycan Tarixi Muzeyinin 95 illik yubileyi münasibətilə səmimi təbriklərimizi çatdırır və çətin, lakin şərəfli işinizdə uğurlar arzulayırıq.

Biz inanırıq ki, kollektivinizin yorulmaz səyi və bacarığı sayəsində tariximizin təkrarolunmaz yadigarları əbədi yaşayacaqdır.

Xəzər Universitetinin kollektivi adından
Hassan Niknafs
rektor



"XƏZƏR"İN MÜƏLLİMİNƏ TƏDQİQAT ÜÇÜN QRANT VERİLDİ

Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu Gənc Alim və Mütəxəssislərin 3-cü Qrant Müsabiqəsinin nəticələrini elan etmişdir.

Qaliblərdən biri də Xəzər Universitetinin Riyaziyyat departamentinin müəllimi Əli Hüseynlidir.

Fond növbəti 12 ay ərzində onun "Parametrdən asılı öz-özünə qoşma olmayan kəsilən sərhəd məsələsinin məxsusi və qoşma funksiyalar sisteminin bazislik xassələri" layihəsi çərçivəsində aparacağı elmi tədqiqat işinə maddi dəstək verəcək.

Layihənin məqsədi klassik mexanikada (rəqslər nəzəriyyəsində) meydana çıxan spektral parametrdən asılı bir sıra kəsilən öz-özünə qoşma olmayan sərhəd məsələlərini öyrənməkdir. Buraya spektral məsələnin spektrinin strukturu (növü, normal məxsusi ədədlərinin təkrarlanma dərəcəsi), məxsusi ədədlərin və məxsusi funksiyaların asimptotikası, bu və ya digər şəkildə ayrılmış teoremlərinin alınması daxildir. Qarşıya qoyulan əsas məqsəd sərhəd məsələsinin məxsusi və qoşulmuş funksiyalar sisteminin bazislik xassələrinin öyrənilməsidir. Baxılan məsələlər bilavasitə rəqslər nəzəriyyəsinin öyrənilməsi zamanı meydana çıxdığından, gözlənilən nəticələrin alınması rəqslər nəzəriyyəsinin araşdırılması zamanı alınan xüsusi törəməli tənliklər üçün Furye metodunun əsaslandırılmasının qanunauyğun olduğunu göstərəcək.

Əli Hüseynli həmçinin, Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunun böyük elmi işçisidir.

GƏNCƏ DÖVLƏT UNİVERSİTETİNDƏ MONİTORİNQ

Oktyabrın 12 və 13-də Xəzər Universitetinin koordinatorluğu ilə həyata keçirilən *"Curriculum Development and Capacity Building in the Field of EU Studies"* adlı Tempus layihəsinin koordinatoru Baba Bayramlı və maliyyə meneceri Nağı Bayramlı layihənin tərəfdaşı olan Gəncə Dövlət Universitetində səfərdə oldu və layihənin icra vəziyyətini yoxlamaq üçün monitorinq apardılar. Monitorinq zamanı layihə üzrə fəaliyyətlərin nəticələri nəzərdən keçirildi, növbəti dövr üçün qarşıda duran vəzifələr və onların həyata keçirilməsi ilə bağlı konkret addımlarla bağlı müzakirə aparıldı. Kurrikulumların işlənib hazırlanması ilə bağlı tarix və sosial fənlər departamentlərində görüşlər keçirildi, hazırlanmış tədris proqramlarının Avropa standartlarına uyğunlaşdırılması zərurəti qeyd edildi.

MONITORING AT GAJNA STATE UNIVERSITY

On October 12 and 13, Baba Bayramli, Project Coordinator of the "Curriculum Development and Capacity Building in the Field of EU Studies" Tempus project which Khazar University is coordinating, and Naghi Bayramli, Financial Manager, visited project partner Ganja State University and carried out monitoring for the project. They observed the project's progress and held discussions about concrete next steps for the implementation of upcoming project activities. Meetings were held in the university's history and social sciences departments about preparation of curriculum. The necessity to prepare the training program in accordance with European standards was emphasized.

"XƏZƏR"İN DOKTORANTININ MƏQALƏSİ ÇAP OLUNMUŞDUR

2015-ci ilin aprelində Xəzər Universitetinin doktorantura tələbəsi Xanım Cəfərovanın "Bioloji və sosioloji hadisə kimi dilin mahiyyəti" adlı məqaləsi Qafqaz Universitetinin "Gənc tədqiqatçıların 3-cü elmi konfransının materialları" toplusunda və "Dilin mahiyyəti ilə bağlı bəzi qeydlər" adlı məqaləsi Azərbaycan Dillər Universitetinin "Dil və ədəbiyyat" jurnalında çap edilmişdir.

Hər iki məqalədə müəllif dilin mahiyyətini açıqlamış və bu mövzu ilə bağlı müxtəlif dilçi və filosofların əsərlərini araşdırmışdır.






GƏNCLƏR ÜÇÜN MİLLİ MƏCLİSƏ SEÇKİLƏRLƏ ƏLAQƏDAR TƏLİM KURSU

Oktyabrın 9-dan 11-dək "Magiya" İctimai Birliyinin təşkilatçılığı, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə Lənkəran şəhərində gənc seçicilərin Milli Məclisə seçkilər haqqında məlumatlandırılması və seçkidə onların fəal iştirakının təmin edilməsi məqsədilə ölkənin 14 bölgəsindən (Ağstafa, Astara, Bakı, Bərdə, Gəncə, Qax, Qazax, Lənkəran, Mingəçevir, Naxçıvan, Sumqayıt, Şəki, Yardımlı, Yevlax) olan 26 nəfər gənc üçün 3 günlük təlim keçirilmişdir. Təlimdə Xəzər Universitetinin II kurs tələbəsi Qurban Əsgərov da iştirak etmişdir.

Təlim kursunun sonunda bütün iştirakçılara sertifikatlar və Milli Məclisə seçkilərin keçirilməsi barədə müvafiq bukletlər təqdim olunmuşdur. Sonda iştirakçılar və təşkilatçılar gənclər üçün belə bir mühüm layihənin həyata keçirilməsini təmin etdiyi üçün Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fonduna minnətdarlıqlarını bildirmişlər.











"BİLİK" YARIŞININ QALİBLƏRİ MÜKAFATLANDIRILDI

Oktyabrın 17-də Xəzər Universitetinin Mərmər salonunda Tələbə Məclisinin təşkilatçılığı ilə "Dövlət Müstəqilliyi Günü"nə həsr olunmuş "Bilik" yarışı keçirildi. Yarışda münsif olaraq yazıçı Qalib Xəlil, izləyici kimi Xəzər Universitetinin müəllim və tələbələri iştirak etdilər. Yarışda qalibiyyət uğrunda 16 komanda (Humanitar və sosial elmlər – 4, Təhsil – 4, İqtisadiyyat və menecment – 3, Mühəndislik və tətbiqi elmlər – 3, "Dünya" məktəbi –2) iştirak edirdi. Yarış 3 turdan ibarət idi.





1-ci yeri 88 xalla Humanitar və sosial elmlər fakültəsinin birinci komandası (Nicat İsmail, Fuad İbrahimov, Hüseyn Hüseynzadə), 2-ci yeri 77 xalla ikinci komandası (Pərvin Rəhimli, Aidə Qasımova, Abdullah Cavadov) və 3-cü yeri 74 xalla digər komandası (Cəlal Hüseynbəyli, Cavid Babayev, Kamran Hüseynov) qazandılar. Mühəndislik və tətbiqi elmlər fakültəsinin iki komandası 4-cü və 5-ci yerləri tutmuşdur.

Oktyabrın 19-da Xəzər Universitetinin rektoru Hassan Niknafs, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli yarışın qaliblərinə mükafatları təqdim etdilər.

Qalib komandalara müvafiq olaraq diplomlar və 300, 150 və 75 manat pul mükafatı təqdim olundu.

Eyni zamanda, təşkilatı işlərdə fəal olan tələbələr – Fatimə Qəmbərli, İlahə Məmmədova, Gülnar Ağayeva, Sevinc Binnətova, Cəmilə Həsənova, Leyla Quluzadə, Sabrina Ramazanova və Tunar Abdulxalıqov Tələbə Məclisi tərəfindən "Təşəkkürnamə" ilə təltif edildilər.

Qalibləri təbrik edir, onlara yeni uğurlar arzulayırıq.



CENTER DIRECTOR AT INTERNATIONAL CONFERENCE

On October 15-16, Dr. Farda Asadov, Director of the Center for Eurasian and Middle East Studies of Khazar University, participated in an international conference held at Keimyung University, South Korea. Scholars from countries of Central Asia, Iran, Turkey, Azerbaijan, Korea, Russia, Pakistan, China and Great Britain contributed to the conference program, which covered cultural and artistic exchange along the Silk Road. Dr. Farda Asadov made a presentation of his research paper "Khazaria on the Silk Road: mobility of people and merchandise in VI-IX CE."

MƏRKƏZİN RƏHBƏRİ BEYNƏLXALQ KONFRANSDA



Oktyabrın 15 və 16-da Xəzər Universitetinin Avrasiya və Yaxın Şərq Araşdırmaları Mərkəzinin rəhbəri Fərda Əsədov Cənubi Koreyanın Keymyung Universitetinin "İpək yolunda incəsənət və mədəniyyət" beynəlxalq elmi konfransında iştirak etmişdir. Konfransın iki iş günü ərzində Mərkəzi Asiya ölkələri, Türkiyə, İran, Azərbaycan, Koreya, Rusiya, Pakistan, Çin, Böyük Britaniya alimlərinin İpək yolunda incəsənt və mədəniyyətlər mübadiləsi məsələlərinə həsr edilmiş çoxlu məruzələri dinlənilmişdir.

Fərda Əsədov "Xəzər xaqanlığının İpək Yolu ticarətində tacirləri və ticarət malları" mövzusunda məruzə ilə çıxış etmişdir.

TƏHSİL FAKÜLTƏSİNDƏ MÜSTƏQİLLİK GÜNÜ İLƏ BAĞLI TƏDBİR KEÇİRİLDİ

Oktyabrın 15-də Təhsil fakültəsində Günay Novruzovanın Azərbaycan tarixi dərsi zamanı 18 Oktyabr – Müstəqillik Gününə həsr olunmuş tədbir keçirildi. Tədbiri açan G. Novruzova tələbələri müstəqillik günü münasibətilə təbrik etdi və Azərbaycanın müstəqillik tarixi ilə bağlı məlumat verdi.

Sonra söz tələbələrə verildi. Tələbələrdən İradə Əhmədli, Səmra Seyfullayeva, Əfsanə Fətəliyeva, Bilal Əzizov hazırladıqları təqdimatla çıxış etdilər.

Tədbirdə Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova da iştirak edirdi. O, çıxışında xalqımızın azadlıq mübarizəsindən danışdı. G. Novruzova tədbirin sonunda tələbələrə çıxışları üçün təşəkkür etdi.


KHAZAR INSTRUCTOR AT WORKSHOP IN GERMANY

Taher Chegini, an instructor in the Civil Engineering Department, was awarded a fund by DAAD to participate in a workshop titled "Water in Urban Life 2020; Water and Human Health in Urban Systems" which was held from September 26 to October 16, 2015 in the University of Duisburg-Essen, Essen, Germany.

Objectives of this event were transfer of water knowledge and sustainability approaches as well as development of an interdisciplinary urban water management system. Experts from various relevant disciplines such as engineering, chemistry and environmental science attended the event and shared their knowledge and experience in this field with the aim of creating sustainable water resource management in urban systems.

The event consisted of 3 workshops and 19 lectures covering various aspects of the water technologies ranging from risk assessment to micropollutants. The workshops focused on the subjects of teambuilding for team leaders, addressing environmental issues related to water supply and treatment and the road map to rectify them. The lectures were presented by well-known scientists from Germany and the Netherlands, two of the most advanced countries in water engineering science. The lecturers gave an overview of the history of the environmental issues related to water supply and wastewater treatment in various catchments across Europe, then presented the applied technologies, management systems and the European Chemicals Regulation that were used to overcome the issues. Moreover, the participants visited some of the state-of-the-art water and wastewater treatment plants, as well as several research centers in Germany.


At the end of the event, Mr. Chegini gave a presentation about current environmental issues and urban water management systems in Iran and Azerbaijan and compared them with those of Germany. In his presentation, which was well-received and applauded, he also elaborated on the road map for effective implementation in Iran and Azerbaijan of various technologies and integrated management systems that were presented during the lectures.



JURNALIN YENİ SAYLARI ÇAPDAN ÇIXIB

Oktyabr ayında "Azərbaycan arxeologiyası" jurnalının 2014-cü ilin 2-ci və 2015-ci ilin 1-ci sayları çapdan çıxıb. "Azərbaycan arxeologiyası" jurnalı mədəni irsin araşdırılması və geniş ictimaiyyətə çatdırılması işində yaxından iştirak edir. 2014-cü ilin 2-ci sayı görkəmli arxeoloq Qüdrət İsmayılzadənin 80 illik yubileyinə həsr olunmuşdur. Jurnalda Q. İsmayılzadənin elmi və pedoqoji fəaliyyətini əks etdirən məqalədə Xəzər Universiteti ilə bağlı fəaiyyətinə geniş yer verilmişdir.

2015-ci ilin 1-ci sayında qocaman arxeoloqlarla yanaşı, gənc tədqiqatçıların da məqalələri dərc olunmuşdur. Geniş oxucu kütləsinə çatdırılması məqsədi ilə jurnalın hər iki sayı Milli Kitabxana, ali məktəb kitabxanaları ilə yanaşı, müxtəlif elmi dairələrin kitabxanalarına da hədiyyə edilmişdir.



Welcome Party












Oktyabrın 20-də Xəzər Universitetində Təhsil fakültəsinin 2010-cu ildən başlayaraq, birinci kurs tələbələri üçün təşkil etdiyi ənənəvi görüş keçirildi.

Tədbirin məqsədi tələbələri universitet həyatı ilə daha yaxından tanış etmək, fakültənin yuxarı kurs tələbələri ilə ünsiyyət yaradılmasına kömək etmək və eyni zamanda, tələbə həyatının sadəcə auditoriyadan ibarət olmadığını, sosiallaşmanın əhəmiyyətini, "Xəzər ailəsi"nə mənsub olmağın özəlliyini onların diqqətinə çatdırmaqdır.

Sevindirici haldır ki, ilk dəfə dekanlıq işçilərinin təşkilatçılığı ilə keçirilən bu tədbir artıq yuxarı kurs tələbələrinin birbaşa iştirakı, təşəbbüsü və təşkilatçılığı ilə təşkil olunur.





XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİ VƏ ƏMƏKDAŞLARI
BAKI BEYNƏLXALQ DƏNİZ TİCARƏTİ LİMANINDA

Oktyabrın 16-da Xəzər Universitetinin tələbələri və əməkdaşları Siyasi elm və beynəlxalq münasibətlər departamentinin təşkil etdiyi ekskursiyada iştirak etdilər. Onlar Bakıdan 65 km cənubda – Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarəti Limanında oldular. Limanın direktorunun müşaviri Tural Əliyev ekskursiya istirakçılarına 400 hektarlıq ərazini əhatə edən liman haqqında ətraflı məlumat verdi. O, həmçinin, qonaqlara limanın tikilməsi üçün Ələt qəsəbəsinin seçilməsinin səbəblərini açıqladı, tikinti planının üç mərhələsi və hazırkı vəziyyəti haqqında danışdı.

Görüş zamanı limanın fəaliyyətinin ətraf mühitə təsiri və regionda yerləşən digər limanlarla əməkdaşlıq imkanları kimi mövzular müzakirə olundu. Limanın regionda nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və beynəlxalq ticarətin inkişaf etdirilməsi üçün potensialı da müzakirə mövzuları arasında idi.

Yağışlı hava şəraitinə baxmayaraq, tələbələr və əməkdaşlar tikinti sahəsi ilə də tanış oldular, gəmilərin yüklənilməsi və boşaldılması prosesini, xüsusilə dəmiryol vaqonlarının gəmilərə daxil olmasını müşahidə etdilər.



Oktyabrın 16-da Xəzər Universiteti Karyera Mərkəzinin təşkilatçılığı ilə universitetdə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin baş məsləhətçisi, təlimçi-psixoloq Orxan Oruczadə və İnnovasiyalar Mərkəzinin insan resurslarının idarə olunması üzrə mütəxəssisi Aytən Şıxəliyeva təlim keçirdilər.

Təlimdə universitetin tələbələri iştirak edirdilər. Onlarla məktub, effektiv CV yazmağın qaydaları, effektiv müsahibə, könüllülük fəaliyyətinin xeyirləri haqqında müzakirələr aparıldı. Tələbələri maraqlandıran suallar cavablandırıldı.

GƏNC TARİXÇİLƏR NUMİZMATİKA MÜZEYİNDƏ OLDULAR

Oktyabrın 16-da Təhsil fakültəsinin tarix ixtisası üzrə təhsil alan birinci kurs tələbələri seçdikləri peşədə ixtisaslaşmaları məqsədilə müəllimləri Orxan Zamanovla birlikdə İçərişəhər Dövlət-Tarix Memarlıq Qoruğu İdarəsinin İçərişəhər Tarix Muzeyinin Numizmatika ekspozisiyası ilə tanış oldular. Burada peşəkar numizmat və tarixçi Qənirə Pirquliyevanın maraqlı izahı ilə Azərbaycanın qədim pul və sikkə zərbi ilə bağlı tarixini əks etdirən sərgiyə tamaşa etdilər.

Sonra tələbələr yaxınlıqda yerləşən Miniatür Kitab Muzeyində miniatür kitab sənətinin nadir nümunələri ilə tanış oldular. Gənc tarixçilər üçün ilk ekskursiyalar maraqlı keçdi.

"XƏZƏR"İN ƏMƏKDAŞI ELMİ KONFRANSDA TƏQDİMATLA ÇIXIŞ ETMİŞDİR

Oktyabrın 6-dan 9-dək Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin dekan müavini Mələk Kərimova Türkiyənin Mersin şəhərində keçirilən "13-cü milli psixoloji xidmət və rəhbərlik" adlı konfransda "Azəbaycanda İnternet asılılığının araşdırılması: ilk empirik çalışma" adlı tədqiqatın nəticələri ilə çıxış etdi. Türkiyəli mütəxəssis Selim Günüşlə birlikdə S.Günüç və Murat Kayrinin (2010) hazırladığı İnternet asılılıq testi Azərbaycan mühitinə elmi şəkildə uyğunlaşdırılmışdır. Bu test 1146 "Xəzər"li tələbə üzərində sınaqdan keçirilmiş və bu sahədə ilk empirik tədqiqat olaraq "Journal of Education və Training Studies"-də *(http://redfame.com/journal/index.php/jets/index)* onlayn olaraq dərc edilmişdir.

TM PARLAMENTİNİN NÖVBƏTİ İCLASI KEÇİRİLDİ

Oktyabrın 18-də Tələbə Məclisi Parlamentinin növbəti (13-cü) iclası keçirildi.

İclasda Tələbə Məclisinin fəaliyyətinin iş planlarının elan olunması, İqtisadiyyat və menecment fakültəsinin 3-cü kurs tələbəsi Musa Abudllayevın "O səs Azərbaycan" yarışmasında uğurları və noyabrın əvvəllərində ona müsabiqədə dəstək olacaq tələbə qrupunun yaranması, ATGTİ-nın Xəzər Universitetinin tələbələri üçün qeydiyyat vərəqələrinin paylanması, yeməkxana ilə bağlı keçiriləcək anonim sorğuların cavablarının elan olunması və noyabrın 1-də universitetdə *Helloween* bayramının xarici tələbələrlə birgə keçirilməsi məsələləri müzakirə olundu.

Sonra tələbələrə "Dünya" məktəbinin idman zalında məşğul ola biləcəkləri idman növləri (voleybol, basketbol, üzgüçülük, stolüstü tennis, karate, kung-fu və s.), dərnəklər (ebru əl sənətləri, piano, gitara, rəsm, rəqs) və kurslar (psixoloqiya, rus dili, ingilis dili) haqqında məlumat verildi.

Fakültələrarası keçiriləcək minifutbol yarışının qaydaları müzakirə olundu və açıq səsvermə yolu ilə hər bir komandada yalnız bir əcnəbi oyunçunun olması şərti qəbul olundu.

İclasda İctimai əlaqələr və mediya üzrə direktor Əlövsət Əmirbəyli iştirak edirdi.

ÜMUMDÜNYA STATİSTİKA GÜNÜ QEYD OLUNDU

Oktyabrın 20-də Ümumdünya Statistika Gününün qeyd olunması ilə bağlı "Hilton" mehmanxanasının "Sevda" zalında təntənəli iclas keçirildi. İclasda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri profesor Hamlet İsaxanlı iştirak etdi.

Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının, ali təhsil müəssisələrinin, beynəlxaq təşkilatların Azərbaycandakı nümayəndəliklərinin rəhbərləri, millət vəkilləri və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edirdilər.



RUSİYA ELMLƏR AKADEMİYASININ NÜMAYƏNDƏSİ TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN QONAĞI OLDU

Oktyabrın 22-də AMEA Arxeologiya və Etnoqrafiya İnstitutun əməkdaşı, paleolit dövrü üzrə mütəxəssis, fəlsəfə doktoru Azad Zeynalov və Rusiya Elmlər Akademiyasının Sankt-Peterburq Maddi Mədəniyyətlər İnstitutunun əməkdaşı, fəlsəfə doktoru, arxeoloq Sergey A. Kulakov Xəzər Universitetində Tarix və arxeologiya departamentinin qonağı oldular. Görüşdə arxeologiya elminin problemləri, xüsusilə paleolit dövrünün araşdırılması, Rusiya və Azərbaycan arxeoloqları arasında əməkdaşlığın inkişafı və digər mövzularda fikir mübadiləsi aparıldı.

Sergey A.Kulakov vasitəsilə "Azərbaycan arxeologiyası" jurnalının son illərdəki nömrələri Rusiya Elmlər Akademiyasının Sankt-Peterburq Maddi Mədəniyyətlər İnstitutunun kitabxanasına hədiyyə olundu. Təşkil edilmiş görüş Rusiya tarixçiləri ilə Azərbaycan tarixçilərinin elmi əməkdaşlığının inkişafı baxımından olduqca mühüm əhəmiyyət kəsb edir.

RUSSIAN ACADEMY OF SCIENCES REPRESENTATIVE VISITS DEPARTMENT OF HISTORY AND ARCHEOLOGY

On October 22, Dr. Azad Zeynalov, specialist in the Paleolithic Era and member of the Azerbaijan National Academy of Sciences' Archeology and Ethnography Institute, and Dr. Sergey A. Kulakov, archeologist and member of the Russian Academy of Sciences' Saint Petersburg Institute of Tangible Cultures, visited the Khazar University Department of History and Archeology. At the meeting, they discussed issues of archeology, research on the Paleolithic Era, development of cooperation among Russian and Azerbaijani archeologists, and other academic topics. Sergey A. Kulakov helped donate issues of the Azerbaijan Archeology journal (2012 №2, 2013 №1 və №2, 2014 №2, and 2015 №1) to the Russian Academy of Sciences' Saint Petersburg Institute of Tangible Cultures' library. This meeting was significant for the development of scholarly partnerships among Russian and Azerbaijani historians.

DÜNYA MƏKTƏBİ



Ünvan: Bakı, Əcəmi Naxçıvani 9

Dünya məktəbi
Tel.: (012) 563 59 40/47/48
Mob.: (070) 844 08 88
E-mail: info@dunyaschool.az
http://dunyaschool.az

Dünya bağçası
012) 563 59 43; 563 59 45
Mob.: (070) 560 15 18
E-mail: bagca@dunyaschool.az

VALİDEYNLƏRİN VƏ ŞAGİRDLƏRİN NƏZƏRİNƏ!

XƏZƏR UNİVERSİTETİNİN DÜNYA MƏKTƏBİ 2015-2016-CI TƏDRİS İLİNDƏ I-XI SİNİFLƏRƏ ŞAGİRD QƏBULU ELAN EDİR:

Qəbul müsabiqə yolu ilə həyata keçirilir.

Təhsil 3 dildə (Azərbaycan, rus, ingilis) aparılır. Azərbaycan və rus bölmələrində ingilis dili ikinci dil kimi tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman, çin dilləri də öyrədilir.

Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar. Burada savadla yanaşı, tərbiyə də mühüm yer tutur.

Dünya məktəbi beynəlxalq statuslu məktəbdir. O, Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Orqanization – IBO) üzvüdür. Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.

X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Diplom Proqramında təhsil ala bilərlər. Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər.

Diplom Proqramında təlim ingilis dilindədir. Təhsil müddəti 2 ildir.

Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar.

MƏKTƏBƏQƏDƏR HAZIRLIQ

2015-2016 –cı il üçün hazırlığa uşaq qəbulu davam edir.

Hazırlıqda 4-5, 5-6 yaşlı uşaqlar üçün Azərbaycan, ingilis və rus dillərində qruplar təşkil olunub. Bütün qruplarda əlavə iki dil (Azərbaycan, ingilis, rus) tədris edilir.

Gündəlik dərs proqramından əlavə, Şahmat, Kompüter, Psixologiya, Rəsm-Əmək, Rəqs, Dram və Musiqi dərsləri keçirilir.



Universitetdə bakalavr pilləsində aşağıdakı ixtisaslar üzrə kadr hazırlığı aparılır:

I qrup üzrə:

- Kompüter elmləri
- Neft-qaz mühəndisliyi
- Kompüter mühəndisliyi
- İnşaat mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Biotibbi texnika mühəndisliyi
- Mexanika mühəndisliyi

II qrup üzrə:

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Tarix müəllimliyi
- Coğrafiya müəllimliyi
- Regionşünaslıq (regionlar üzrə)
- Beynəlxalq münasibətlər

III qrup üzrə:

- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- Xarici dil (ingilis dili) müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Filologiya (İngilis dili və ədəbiyyatı)
- Filologiya (Azərbaycan dili və ədəbiyyatı)
- Politologiya
- Tərcümə (ingilis dili və digər dillər)
- Dizayn

IV qrup üzrə:

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Psixologiya

Ünvan: Məhsəti küçəsi, 41
(Neftçilər metrosunun yaxınlığında)
Əlaqə telefonları: (012) 323-93-13, (012) 408-81-78, (012) 421-79-27
Faks: (012) 498-93-79
İnternet: http//www.khazar.org

XƏZƏR UNİVERSİTETİ

Xəzər Universiteti
Xəzəri ən çox tanınan,
xaricə ən çox tələbə göndərən,
xaricdən oxumağa tələbələrin ən çox gəldiyi,
xarici müəllimlərin ən çox işlədiyi ali məktəbdir.
Xəzər Universiteti Azərbaycanda yeganə universitetdir ki, onun tədris siyasəti və diplomları Avropa və Amerikanın universitetləri tərəfindən tanınır.

Xəzər Universiteti dünyada ali məktəblərin reytinqinin müəyyənləşdirilməsi sahəsində nüfuzlu təşkilatların reytinq cədvəlində Azərbaycan ali məktəbləri arasında həmişə birinci olmuşdur.

QS (World University Rankings) təşkilatının 2015-ci il sentyabrın 15-də elan etdiyi reytinq cədvəlinə əsasən Xəzər Universiteti dünyanın ən yaxşı 700 universiteti arasında yer almışdır.

2015-ci il oktyabrın 21-də QS (World University Rankings) təşkilatı 2015/16-cı tədris ili üçün inkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya ölkələri universitetlərinin 2-ci illik reytinqini müəyyənləşdirmişdir. Xəzər Universiteti Azərbaycandan ilk 70 ali təhsil müəssisəsi arasında yer almış tək universitetdir.

***

Xəzər Universiteti ilk gündən beynəlxalq təcrübəyə əsasən quruldu və Azərbaycanda ingilis dilində tədrisə keçən ilk universitet kimi tanındı. Təhsil sahəsində ən qabaqcıl ölkələrin təcrübəsini öyrənmək və tətbiq etmək ilkinliyi də məhz Xəzər Universitetinə nəsib oldu. Dünya təhsil məkanında qabaqcıl mövqeyi və nüfuzu ilə diqqətçəkən Universitetin beynəlxalq əlaqələri yalnız təlim-tədris sahəsində deyil, yüksək ixtisaslı dünya insanı hazırlığında da əhəmiyyət daşıyır. Demokratizm və humanizm, plüralizm və şəffaflıq, müasirlik və təşəbbüskarlıq, ən son təlim texnologiyalarından istifadə, beynəlxalq proqram və layihələrdə fəallıq və digər bu kimi hallar bütünlüklə Universitetdə işgüzarlıq şəraiti yaradır, tələbələrin fəallığı və müstəqilliyini təmin edir.

Professor Öjdər Ağayev,
Azərbaycan Təhsil Şurasının sədri

Universitetin maddi-texniki bazası

Məhsəti küçəsi, 41 ünvanda yerləşən müasir avadanlıqlarla təchiz edilmiş tədris korpusunda (Neftçilər metrosunun yaxınlığında), şəhərin mərkəzində Bəşir Səfəroğlu küçəsi, 122 ünvanda yerləşən tədris binasında və 8-ci MKR, Əcəmi Naxçıvani küçəsi, 9 ünvanda (Ayna Sultanovanın heykəlinin yaxınlığında) 3 bina və ayrıca idman kompleksindən ibarət tədris kampusunda yüksək keyfiyyətli təhsil almaq üçün hər cür şərait yaradılmışdır.

Təhsil və karyera imkanları

Təhsildə fərqlənən tələbələr təhsillərini Amerika, Kanada, İngiltərə, Fransa, Almaniya, Hollandiya, İsveç, İtaliya, Türkiyə, Çin, Yaponiya və s. ölkələrin tanınmış universitetlərində davam etdirmək imkanı qazanırlar.

Xəzər Universitetində əsas təhsil dili ingilis dilidir. Bu, tələbələrin müasir dərsliklərdən istifadə etməsi, təhsillərini xaricdə davam etdirməsi, xaricdən gələn müəllimlərin effektli dərs deməsinə geniş imkan verir. Məzunlar və yuxarı kurs tələbələri xarici şirkətlərdə yüksək maaşlı işlərə dəvət alırlar, eləcə də dövlət təşkilatlarında və ölkəmizin qabaqcıl şirkətlərində işləmək imkanı əldə edirlər.

Təhsil haqqının ödənilməsində güzəştlər

TQDK-nın keçirdiyi imtahanlarda yüksək bal toplayan tələbələrə aşağıdakı qaydada güzəştlər edilir. İmtahanlarda:
650-700 bal toplayan tələbələr təhsil haqqından tam azad edilir.
600-649 bal toplayan tələbələr təhsil haqqının cəmi 25%-ni ödəyir.
550-599 bal toplayan tələbələr təhsil haqqının 50%-ni ödəyir.
500-549 bal toplayan tələbələr təhsil haqqının 75%-ni ödəyir.

Tələbələr təhsil aldıqları müddətdə əsgəri xidmətdən azaddırlar.